AZƏRBAYCAN SSR ELMLƏR AKADEMIYASI
TARIX INSTITUTU
*MIRZ**Ə** **C**AMAL*
***C**AVANŞIR QARABA**Ğ**I*

QARABAĞ TARIXI

Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı
Bakı — 1959
*Tərcümə, müqəddimə**,** qeydlər və adlar göstəricisi*
F. BABAYEVINDIR
*Redaktorları**: R. ƏLIYEV, Ş. TAĞIYEVA***
Nəşriyyat redaktorları: *V- Əliyev* və *Q. Valasanova*
Texredaktoru *Ş. Ağayeea*
Korrektorları: *M. Məmmədova* və *Q. Dondarov*
Çapa imzalanmış 11/VII 1959-çu il. Kağız formatı *60x92₁/ₖ.* Kağız vərəqi 6.25.
Çap vərəqi 12,5. hes.-nəşriyyat vərəqi 11,5. FQ 14576. Sifariş 6<:6. Tiracı 3000.
Qiyməti 9 man. 35 qəp

INSTITUTDAN

Mirzə Camal Cavanşir Qarabağinin oxucularımıza təqdim edilən «Qarabağ tarixi» adlı
əsəri Azərbaycanın XVIII-XIX əsrlər tarixinə aid qiymətli ilk mə'xəzlərdən biridir.
Mirzə Camal, Cavanşir elinin başçılarından birisinin oğlu idi. O, bir müddət Pənah xanın və onun oğlu Ibrahim xanın yanında mirzəlik etmiş, 1797-ci ildə vəzir Molla Pənah
Vaqif öldürüldükdən sonra isə vəzirlik vəzifəsinə təyin edilmişdi. Mirzə Camal bu vəzifəni
Ibrahim xanın oğlu Mehdiqulu xan zamanında belə (1822-ci ilə qədər) daşımışdır.
Azərbaycanda xanlıqlar ləğv olunduqdan sonra o, əyalət məhkəməsinə tə'yin edilmiş və burada 18
il çalışaraq 1840-cı ildə yaşının çoxluğuna görə iste'faya çıxmışdır.
Mirzə Camal 1853-cü ildə vəfat etmişdir.
Mirzə Camal öz əsərini fars dilində yazmış və onun mətni bizə əlyazması halında gəlib
çıxmışdır.
Bu əsərin Azərbaycan dilinə tərcüməsi ilk dəfə çap olunur. Əsərin A. Berce tərəfindən
rus dilinə müxtəsər və sərbəst tərcüməsi 1855-ci ildə Tiflisdə nəşr olunan «Qafqaz» qəzetində dərc edilmişdir. A. Berce həmin tərcüməyə yazdığı müqəddimədə müəllifin
şəxsiyyətindən bəhs edir onun tərcümeyi-halı haqqında M. F. Axundovun köməyilə Mirzə

Camalın oğlu Rzaquludan mə'lumat aldığını söyləyir O, yazırdı: «Mirzə Camal ərəb, fars və
osmanlı dillərindən başqa ləzgi və avar dillərini də bilirdi. Astronomiya tarix və
coğrafiya haqqında olduqca gözəl mə'lumatı var idi. Tibb elmi ilə tanış olduğundan
iste'faya
çıxdıqdan sonra ömrünün axırına qədər xəstələri pulsuz müalicə edirdi və buna görə
də xalq
arasında böyük hörməti var idi. O olduqca hafizəli və iste'dadlı bir şəxs idi. Ərəb və
fars
dillərində şe' r yazardı»[1].
Müqəddimə, 7 əsas fəsil, 13 qısa hissə və son sözdən ibarət olan bu əsərdə
Qarabağın qədim
zamanlardan başlayaraq 1828-ci ilə qədər davam edən siyasi tarixindən bəhs edilir.
Xüsusilə 1747—1828-ci illərdə Qarabağ və qonşu rayonlarda baş verən tarixi
hadisələrə
həsr olunmuş III—VII fəsillər daha çox qiymətlidir. Əsərdə bu illərə aid, xüsusilə
Pənah xan
və Ibrahim xanın hakimiyyəti haqqında verilən mə'lumat başqa mənbələrə nisbətən
daha
dolğundur. Bu fəsillərin qiymətini artıran başlıca cəhət ondan ibarətdir ki, əsərin
müqəddimə və son sözündə deyildiyi kimi, bu hadisələri təsvir edən müəllif uzun
zaman hər iki
xanın yanında katiblik və vəzirlik etmiş, haqqında danışılan bir çox hadisələrin şahidi
və iştirakçısı olmuşdur.
Qarabağ tarixi haqqında yazılmış digər əsərləri nəzərdən keçirdikdə bu qənaətə
gəlmək
olur ki, onların bir çoxunun əsasını, xüsusilə Pənah xan və Ibrahim xan dövrlərinə
aid olan
hissələrini Mirzə Camalın əsəri təşkil etmişdir.
Öz əsərlərində. əsas e'tibarilə. Azərbaycanın siyasi tarixindən bəhs edən A.
Bakıxanov,
Mirzə Adıgözəlbəy və başqa müəlliflərdən fərqli olaraq Mirzə Camal Cavanşir öz
əsərində
Qarabağın ictimai-iqtisadi vəziyyəti, kənd təsərrüfatının, suvarma şəbəkəsinin
vəziyyəti,
becərilən bitkilər, xanların və onların qohumlarının əmlakı. gəliri, məxarici,
xanlıqların hərbi qüvvələri, feodalların zülm və istismarı altında inləyən kəndlilərin
və
köçəri ellərin ağır güzəranı, Iran qoşunlarının hücumları nəticəsində əhaliyə üz verən
fəlakətlər və nəhayət, Qarabağın XVIII— XIX əsrlərdəki ictimai-iqtisadi vəziyyətini
aydınlaşdıran bir sıra başqa hadisələr haqqında maraqlı mə'lumatlar verir.
Həmin əsərdə müəllifin dövrünün tə'sirindən törəyən bir sıra məhdud dünya
görüşlərinə
baxmayaraq, əsər bugünə kimi öz böhük elmi əhəmiyyətini saxlamaqdadır.
Azərbaycan _____SSR Elmlər Akademiyasının Tarix Institutu bu əsərin əhəmiyyətini
nəzərə
alaraq onun həm əslini, həm də Azərbaycan və rus dillərinə tərcüməsini nəşr etməyi
lazım
bilmişdir.

Əsər Azərbaycan SSR Elmlər Akademiyası əlyazmaları fondunda saxlanılan əlyazmasından
(inv. № B-712/11603) tərcümə edilmişdir. Əsərin tərcüməsində atasının əsərinə bə'zi əlavələr etmiş müəllifin oğlu praporşik Rzaqulunun əlyazmasından da köməkçi material kimi
istifadə edilmişdir. Tərcüməyə qeydlər və ad cədvəlləri əlavə edilmişdir.

1 «Qafqaz» qəzeti, 1855, № 61.

SƏRDAR VORONSOVUN TAPŞIRIĞI ÜZRƏ MIRZƏ CAMAL QARABAĞININ QARABAĞ VILAYƏTI XANLARI MƏRhUM PƏNAh XAN VƏ IBRAhIM XANIN hAKIMIYYƏT VƏ ISTIQLALIYYƏTI VƏ MÜXTƏLIF hADISƏLƏR hAQQINDA YAZDIĞI MƏ'LUMAT

Rəhmli və mərhəmətli allahın adı ilə
hesabsız həmd, sonsuz səna məxluqatın pərvərdigarına yaraşar ki, səadət və böyüklük
tacını istədiyi adamın başına qoyar və istədiyi adamı ondan məhrum edər. həqiqətən də izzət,
səadət və bəxtiyarlıq onun ümumi kəraməti və əzəli lutflərindən biridir.

B e y t

«Bəndəçiliyi və şahlığı qismət etmək işi (sənin ixtiyarındadır).
Səadəti istədiyin adama verərsən».

Yeri-göyü yaradan allahın dərgahına gizli və örtülü deyildir ki, keçmiş vaqiə və hadisələri bilmək və hər vilayətin vəziyyət və keyfiyyətindən xəbərdar olmaq yalnız mə'lumatın
artmasına və mənfəətin çoxalmasına səbəb ola bilər. Buna görə də hörmət və nəcabat sahibi
olan şanlı kavaler polkovnik qarabağlı Şah Əmirxan Bəylərov müsəlman tarixi ilə 1263,
xristian tarixi ilə isə 1847-çi ildə Şuşa qalasına gəldiyi zaman mənlə, yə'ni həqiqi və səmimi dostu, köhnə işçisi, uzun müddət Qarabağ xanları xidmətində» qulluq sahibi —mirzə və
vəzir olmuş, onların hakimiyyətindən sonra isə yenə də yüksək Rusiya dövlətinin xidmətçiləri
sırasında tapşırılan işləri yerinə yetirməyə çalışmış Qarabağlı Mirzə Camal Cavanşirlə (görüşdü). Söhbət zamanı (mənə qarşı olan) xeyirxahlığına görə, habelə səxavət və
ehsan mənbəi, bəxşişlər xəzinəsi, əmirlər və böyüklər pənahgahı seçilmişlər və kiçiklər
dayağı, əzəmətli ə'lahəzrət imperator və kəramətli xaqanın məhəbbətini qazanmış aləmpənah
padşahın canişini, müxtəlif nişanlar sahibi, general ot infanteri, qraf və knyaz Mixail Semyonoviç Voronsova, — qadir və mərhəmətli allahın inayəti həmişə onun üzərində olsun,—
nisbət bəslədiyi səmimiyyətə əsasən dedi: Əzəmətli(Voronsov), öz hökmü altında olan hər bir
vilayətin tarixini və keçmiş xanların hakimiyyətini, onların ixtiyar və qüdrətini bilməyə
olduqça maraq köstərir. Əgər bunları qələmə alıb, Qarabağ vilayətində üz vermiş (tarixi)
hadisələrin həqiqətini və keçmiş xanların ixtiyar və qüdrətini, düzgün və müfəssəl surətdə,

kəramət sahibi olan böyük əmirin hüzuruna ərz edən olsa, olduqca bəyənilmiş iş görmüş və
onların mübarək xatirinin razılığını əldə etmiş olar.
Cənab canişin knyaza qarşı bəslədiyim səmimiyyətə və xüsusilə onun mənə qarşı göstərdiyi
lütf və mərhəmətə görə belə bir xidməti özüm üçün tam xoşbaxtlıq və səadət vasitəsi bilərək,
özümü kəramət və şövkət sahibi olan o böyük əmirin gözündə zərrə qədər də olsa cilvələndirmək
və bununla da onun xoşhal olmasına və mərhəmət gstərməsi səadətinə nail olmaq istədim. Ona
görə, allaha təvəkkül edərək, qədim tarixlərdə oxuduğum, yaşlı və təcrübəli adamlardan
eşitdiyim və əlli il müddətində gözümlə görüb-bildiyim həqiqi hadisələrin hamısını, artırıb-əskiltmədən yazmağa başladım.
Ümid olunur ki, bu kitab onun şanlı dərgahına bir töhfə kimi qəbul ediləcək və icra etdiyim xidmətlərin biri və səmimiyyətimin nümunəsi kimi qarşılanacaqdır. (Bu işdə) allahdan kömək və müvəffəqiyyət dilərəm. Bu vərəqələri neçə fəslə ayırdım və hər fəsildə
müəyyan hadisələri yazmağa başladım. Allah köməkçi və müvəffəqiyyət bəxş edəndir.

Birinci fəsil

QARABAĞ VILAYƏTININ ƏSL YAŞAYIŞ YERLƏRI, SƏRHƏDLƏRI QƏDIM ŞƏHƏR VƏ ÇAYLARI HAQQINDA

Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhəddi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər — Araz çayıdır. Indi (Sınıq körpü)
Qazax, Şəmsəddin _____və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti mə'murları onu
rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar.
Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə
tökülür.
Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhəddi Kür çayına qədər — Goran çayıdır və
Kür çayı çox yerdən (keçib) Araz çayına çatır.
Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır.
Nəhayət, keçmiş əsrlərdə (burada) iğtişaşlar və dəyişikliklər üz vermiş, bə'zən Iran, Rum (Türkiyə) və Türküstan padşahları bu vilayətləri fəth edib ayrı-ayrı sərhədlər qoymuş,
qalalar tikmiş və onlara başqa adlar vermişlər.
Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir. Çünki Nuh peyğəmbərin, — ona allahın
salamı olsun, — zamanında tufan olduqda və tufandan bir qədər keçdikdən sonra Nuhun
Övladlarından biri Kür və Araz çayları arasındakı Tiflis, Gəncə, Iravan, Naxçıvan, Ordubad şəhərləri və hal-hazırda Qarabağ torpağında xaraba qalmış Bərdə və Beyləqan
vilayətləri və torpaqlarında hökmran və sahib olmuş, buraları abad etmiş və hamısına öz

adını qoymuşdur. Onun adı Aran idi.
Qarabağ vilayətində salınan birinci şəhər Tərtər çayının üstündə və Kür çayının üç ağaclığında[1] olan Bərdə şəhəri və qalasıdır. Qədimdə o şəhərin əhalisi erməni və ya başqa
bir millət imiş. Bağdadı abad və darülxülafə edərək, - orada sakin olan keçmiş Bəni Abbasiyyə xəlifələri zamanında, islam tarixi ilə 306, xristian tarixi ilə isə 886-cı ildə[2], bu
şəhərin əhalisi müsəlman oldu. Bundan sonra olan Beyləqan şəhəridir ki, onu Iran və Fars
şahlarından biri olan Qubad padşah təxminən min beş yüz il bundan qabaq tikdirmişdir. O,
Kür çayından geniş Beyləqan çölünə böyük arx çəkdirərək, orada şəhər yaratdı və ətrafında
Köndələnçaydan Qarqarçaya qədər kəndlər saldırıb camaatı yerləşdirdi və güzəranlarını
muəyyən etdi. Əhali oralarda əkin yerləri, otlaqlar, bağlar salıb kəndlər bina etdi. Qədim
zamanlarda o böyük arxın adı Barlas idi, indi isə Govurarx adı ilə məşhurdur. Çingiz xan
zamanına qədər o şəhər, arx və kəndlər abad idi.
635(1237/38)-ci nldə Çingiz xanın qoşunu gəlib, Beyləqan şəhərini mühasirə etdi və bir
neçə aydan sonra şəhəri alıb camaatını qırdı. Qarabağ vilayətinin mahal və kəndlərinin
əhalisi Qarabağ və Şirvan dağlarına qaçdı. Beyləqan şəhəri və o böyük arx bir müddət xaraba
qaldı.
Teymur padşah Türküstandan Rum vilayətinin üstünə hücum etdi. Rum hökmdarı Sultan
Ildırım Bayəzidlə müharibə edərək, ona qalib gəldikdən sonra, oradan qayıtdı, Beyləqan
şəhərini yenidən abad etdi, çoxlu camaat topladı və arxı təzədən tə'mir edərək şəhərə gətirdi.
Bu yer, bir müddət Səfəvi dövrünə qədər abad idi. Səfəvi padşahları və Nadir şah zamanında
qoşunların Gürcüstana və Şirvana gediş-gəlişi nəticəsində yenə viran oldu, şəhərin əhalisi isə ətrafa dağıldı. (Şəhər) indi də xaraba halındadır.
Doğrudan da bu, böyük faydalı bir arxdır. Bu arxın suyu ilə suvarılan əkin yerlərində taxıl, çəltik, pambıq, çəkil (tut) ağacları və başqa hər cür bitki əkilərsə, bollu məhsul əldə
etmək olar. Belə ki, bir çetvert[3] buğdadan iyirmi çetvert, hətta ondan da artıq məhsul yığmaq
olar. Xüsusilə buranın çəltiyi və darısı bol olur. Əgər bu bitkilərdən bir çetvert əkilərsə,
təxminən əlli çetvert, hətta ondan daha artıq məhsul əldə edilə bilər. Bitkilərin əkilməsi də
asandır. Belə ki, bu işi iki baş öküz ilə asanlıqla görmək olar. Əgər bu arxdan lazımi qayda
ilə istifadə olunsa, onun ətrafında beş-altı min ailə kəndlər salıb, rahatlıqla yaşaya

bilər. Bu böyük arxdan başqa, Arazdan çəkilmiş daha bir neçə arx vardır. Əgər hər arxın
ətrafında yüz-iki yüz ailəlik kəndlər salınarsa, əhali taxıl, çəltik və pambıqdan bollu məhsul götürüb rahat yaşaya bilər. Beyləqan şəhərinin üç yüz ildən artıq xaraba olduğuna

1 Bir ağaç — təqribən 6—7 verstdir.

2 Xristian tarixi düzgün göstərilməmişdir, çünki hicri 306-cu il 918-ci il iyun ayının 14-də başlayıb, 918-ci il
iyunun 3-də qurtarmışdır

3 Bir çetvert 250 puda bərabərdir

baxmayaraq, Pənah xan və Ibrahim xanın hökmranlığının ilk illərində bu .arxlardan istifadə
olunur və xanlar onlardan gəlir əldə edirlər . Arxların adı belədir: Kürək arxı, Luvar arxı,
Mehmənə arxı, Gəmiçi arxı, Sarı arx, Ayaz arxı, Taşqay arxı Xan arxı.

Ikinci fəsil

QARABAĞ VILAYƏTININ TƏBƏƏLIYI, KÖHNƏ ADƏT VƏ QAYDALARI HAQQINDA

Iranda olan cənnətməkan səfəvi sultanlarının dövründə. Qarabağ vilayəti və Dizaq, Vərəndə, Xaçın, Çiləbörd, Talışdan ibarət olan erməni Xəmsə[1] mahalları və elləri rəhmətlik
Nadir şah zamanına qədər Gəncə bəylərbəyinin hökmünə tabe olmuşdur. Cavanşir, Otuziki,
Bərgüşat və başqa ellər arasında kiçik xanların olmasına baxmayaraq, bunların hamısı
Yelizavetpol bəylərbəyinin hökmü altında idi.

Nadir şah Tiflis, Gəncə, Iravan, Naxçıvan və Qarabağ vilayətlərini Rum əhli və qoşununun əlindən alıb öz ixtiyarına keçirdikdən sonra, Qarabağ vilayəti yenə qısa müddət
Yelizavetpol bəylərbəyi hökmünə tabe olmuş və bə'zi vaxt Azərbaycan sərdarının ixtiyarına
keçmişdir. hər elin və mahalın xanları və məlikləri var idi. Bunlar Azərbaycan sərdarının
əmri üzrə padşahın tapşırıqlarını yerinə yetirirdilər. Bu vəziyyət, Nadir şahın müsəlman
tarixilə 1160, xristian (tarixilə) 1743-cü ildə[2] öldürüldüyü günə qədər davam etmişdir.

Üçüncü fəsil

MƏRHUM PƏNAH XANIN ƏSL-NƏSƏBI VƏ QARABAĞ VILAYƏTINDƏKI HÖKMRANLIĞI HAQQINDA

Mərhum Pənah xanın əsl-nəsəbi Dizaqın Cavanşir elindəndir. Bu el qədim zamanlarda
Türküstandan gəlmiş Bəhmənli elinin bir qolu olan Sarıcalı oymağındandır. Bunların ata-
babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idi.

Mərhum Nadir şah Qarabağ, Gənçə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb-tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz
yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən

ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum
Nadir şahın Rum əhli qoşunları ilə etdiyi muharibələrdə şücaət göstərmiş Pənah xanı da
öz yanına apardı. O da istər səfərdə, istərsə evdə sədaqətlə qulluq etməyə çalışıb, şahın
yanında mənsəb və hörmət sahibi oldu. O, bütün tapşırılan işləri yerinə yetirərdi. Bir neçə il bu qərar ilə keçdi. Nadir şahın ona qarşı mərhəməti gündən-günə artmaqda
idi. O, rütbə və mənsəbdə bütün tay-tuşundan, ustün oldu. Şahın evində və ellər arasında olan
bir para qəlbiqara adamlar, paxılların adəti üzrə, açıqda və gizlində Pənah xanı mərhum
Nadir şahın yanında o qədər pislədilər ki, mərhum şahın ona qarşı olan məhəbbətini ədavətə
çevirdilər.
Işin həqiqətindən akah olan Pənah xan, canının qorxusundan, şah Xorasanda olduğu zaman,
fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1150 (1737/38)-ci ildə Qarabağ vilayətinə
qaçdı. Şah onun qaçmasından xəbər tutarkən, onu yolda ələ keçirmək üçün ardınca çaparlar
göndərdi. Lakin mümkün olmadı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə
qət'i fərmanlar göndərildi ki, Pənah xanı harda tapsalar, tutub şahın hüzuruna göndərsin-
lər. Şahın əmri ilə Pənah xanın ailəsini və qohum-əqrəbasını çox incidib, cərimə etdilərsə
də fayda vermədi.
Pənah xan Qarabağ torpağına çatıb vaxtını yaxın adamları ilə birlikdə gah Qarabağın dağlarında gah da Şəki vilayətinin Qəbələ mahalında keçirirdi. O zaman təqribən, onbeş
yaşına çatmış böyük oğlu Ibrahim xəlil xan Xorasanda, öz evlərində yaşayırdı. Bir neçə
vaxtdan sonra o da möhtərəm atasının ardınca Qarabağa kəldi.

1 Xəmsə - beşlik deməkdir. Adları çəkilən beş mahala «xəmsə» deyilirdilər.

2 Hicri 1160-cı il miladi 1747-ci ilə bərabərdir. Nadir şah da 1747-ci ildə öldurülmüşdür.

Bu vəziyyət iki-üç il davam etdi. Nəhayət, Nadir şah hicri 1160-cı (1747) ildə öldürüldü.
Pənah xan Qarabağın yerdə qalmış xalqı arasında üzə çıxdı, bacarıqlı cavanları başına
toplayıb, Gəncə, Naxçıvan və sairəni qarət etməyə başladı. Yanında olan bütün cavanları və
özünün yaxın adamlarını mal, paltar, at və yaraq sahibi etdi. Bu zaman xəbər çatdı ki, vaxtilə
şah tərəfindən Xorasana köçürülmüş Cavanşir və başqa ellər özbaşına bütünlüklə oradan
göçüb, vətənlərinə gəlməkdədirlər. Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ

ellərini qarşılamaq üçün Iraq və Azərbaycan sərhəddinə qədər getdi. Onu salamat görən, nökər
və köməkçilərinin çoxluğunu müşahidə edən bütün el əhli və qohum-əqrəbası sevindi və Pənah
xanla bərabər Qarabağ torpağına daxil oldular. hər kəs öz əvvəlki yurduna gedib rahatlandı.
Ellərin camaatı var-yoxdan çıxmış, soyulmuş, əziyyət çəkmiş və yoxsul olduğuna görə Pənah
xan onların və öz qohumlarının bacarıqlı cavanlarından bir çoxunu öz tərəfinə çəkərək
Şirvan, Şəki, Gəncə, Iravan və Qarabağ vilayətlərini qarət etməyə başladı. Bütün çavanları
mal və dövlət sahibi etdi. Mal, at və xələt paylamaqla, başqa camaatın da səmimiyyətini
qazandı; müxalifət göstərənləri isə öldürmək və cəzalandırmaq yolu ilə özünə tabe etdi.
Cavanşir, Otuziki və başqa ellər və kəndlərin əhalisindən heç bir kimsə Pənah xanın əmrindən çıxmağa cəsarət edə bilməzdi.
Şirvan və Şəki hakimləri Pənah xanın Qarabağ vilayətində belə bir istiqlaliyyət sahibi olduğunu görüb-eşitdikdə, onu özləri üçün zərərli bildilər. hər ikisi Pənah xanı aradan
qaldırmaq üçün ittifaq bağladılar.
Ьələ Qarabağın erməni Xəmsə mahalları ona tabe olmadığı zaman (Pənah xan) ətraf xanların öz üzərinə hücum edəcəkləri təqdirdə ailə və qohumlarının, qulluqçu və yaxın
adamlarının və (el)böyüklərinin qorunması üçün ellərin arasında münasib bir yerdə qala
tikilməsini lazım bilmişdi. Məşvərətdən sonra, indi Kəbirli mahalı içində olan Bayat qalasının binası qoyuldu. Qısa bir zamanda möhkəm hasar və xəndək qayrıldı, bazar, hamam və
məscid tikildi. Xan, bütün ailəsini, qohumlarının və el böyüklərinin əhl-əyalını oraya topladı. Ətrafda olan camaat hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini
eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə
birlikdə gəlib Bayat qalasında yerləşdilər. Bayat qalası müsəlman tarixi ilə 1161, xristian
tarixi ilə 1745-ci ildə[1] tikilmişdir.
Bayat qalası möhkəmləndikdən və Pənah xanın camaatı artdıqdan sonra, onlardan çoxlu
zərər görən Şirvan və Şəki hakimləri ittifaq bağlayıb, Pənah xanı aradan qaldırmaq üçün
böyük qoşunla Bayat qalasına hücum edərək onu mühasirə etdilər.
Mərhum Pənah xan, hər iki-üç gündə bir dəfə qohumlarının və ellərin adlı-sanlı atlıları və bacarıqlı nökərlərilə birlikdə qaladan bayıra çıxaraq, qala ilə düşmən qoşunu
arasında olan böyük meydanda müharibəyə girişir, qəhrəmanlıqlar göstərir, Şirvan və Şəki
qoşununa qalib gələrək qalaya qayıdırdı.
Şirvan və Şəki xanları heç bir iş görə bilmədilər. Mühasirə bir aydan artıq çəkdi. hər

gün qoşunlarının qırılmasını at və eşşəklərinin qarət olunmasını görən xanlar peşiman
və pərişan halda köçüb getdilər və hər kəs öz vilayətinə qayıtdı. Zəmanəsinin kamil adamlarından olan Şəki vilayətinin hakimi Ḥacı Çələbi qayıdan zaman bu sözləri dedi: Pənah
xan bir xan idi. Biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah
edib qayıdırıq.
Bu hadisədən sonra, hakimiyyət və istiqlaliyyəti gündən-günə artmaqda olan Pənah xan,
erməni Xəmsə mahallarını özünə tabe etmək fikrinə düşdü. Ən əvvəl Çiləbörd, Talış və
Dizaq məliklərilə ədavəti olan Vərəndə mahalının köhnə məliki Məlik Şahnəzər bəy mərhum
Pənah xana itaət etməyi məsləhət bilib onun (təklifini) qəbul etdi və var qüvvəsilə ona
dostluq və səmimiyyət göstərdi. Pənah xan da hörmət və dövlət sahibi olan belə bir böyük şəxsin
itaət etməsini özü üçün xoşbaxtlıq sanıb, ona qarşı hörmət və ehtiramını gündən-günə
artırırdı
Xaçın mahalının Məliki bir müddət düşmənçilik edərək əl-qol atdısa da, axırda (xana) tabe oldu və mərhum Pənah xan tərəfindən ata-babasından qalmış və indi də mövcud olan
özünün ayrıca mülkünə tə'yin edildi. Bütün Xaçın əhalisi itaət edərək tapşırılan xidmətləri
düzgün yerinə yetirirdilər. Dizaq, Çiləbörd və Talış məlikləri isə bir neçə iş onunla düşmənçilik və dava etdilər. Axırda, qətl-qarət və lazımi tədbirlərdən sonra (onlar da) itaət
etdilər.
Beş il Bayat qalasında yaşadıqdan sonra, ətrafı düşmən bürüdüyünə görə burada əbədi
şəhər və qala tikmək ehtiyatsızlıq hesab edilərək (məsləhət görülmədi). Qarabağ ellərinin
[1] Ḥicri 1161-ci il, miladi 1748-ci ilə bərabərdir.
mal-qarasını dava zamanında düşmənin ziyanından möhkəm, keçilməz dağlarda qoruya bilmələri
üçün qalanın Qarabağ dağlarına bitişən bir yerdə tikilməsi lazım bilindi. Şah bulağının
üstündə Tərnəküt[1] adlı yerdə yaşayan Xaçın mahalının əhalisi həmişə Pənah xana qarşı
ədavət bəsləyərək, onunla düşmənçilik etdiklərindən (Pənah xan) əvvəlcə onların fəsadını
aradan qaldırmağı qət etdi. Süvari və piyadə qoşunla onların üstünə getdi. Xaçın mahalının
əhalisi iki min tüfəngli və ailələri ilə birlikdə Ballıqaya yaxınlığında olan möhkəm bir yerdə sığınıb, ədavət və düşmənçiliyə başladılar. Mərhum Pənah xan onların səngərinə
hücum etdi. Üç gün arası kəsilmədən qızğın müharibə oldu. Üçüncü kün Pənah xan onların

səngərini tutdu...
Belə bir keçilməz yerin və iki min nəfərə qədər tüfənglinin möhkəm sənkəri Pənah xanın
əlinə keçəndən sonra ətrafdakı əhalinin və Xəmsə mahalları camaatının canına böyük qorxu
düşdü. Onlar Pənah xanla kah sülh və barışıq, kah da düşmənçilik edirdilər. Çoxlu camaatı
və dövləti olan Çiləbörd və Talış mahallarının qədim məlikləri Məlik Ḥatəm və Məlik Usub
bəylə neçə dəfə müharibə oldu. Axırda onlar tabgətirə bilməyib, bir müddət çətin keçidləri
olan yerlərdə, dərin dərələrdə, uca dağlar başında yaşadılar. Əkinlərinin, bağlarının və
mal-qaralarının Pənah xanın adamları və qoşunu tərəfindən paymal və qarət olunduğunu,
güzəranlarının pis keçdiyini görüb, təngə gəldilər; evlərini, bağlarını və əkinlərini tərk
edərək Gəncə tərəfə qaçdılar və yeddi il Gəncə vilayətində və Şəmkür mahalında qaldılar.
Pənah xan Xaçın əhalisinin fəsad və ədavətindən asudə olduqdan sonra, Xaçın mahalına
ayrıca məlik tə'yin etdi. (Mahalın) yerdə qalan əhalisi ona itaət etdi. Bu hadisədən sonra, indi
Şahbulağı adı ilə məşhur olan Tərnəküt qalasının binası qoyuldu. Məsləhətə görə Bayat
qalasını tərk etdilər. Şahbulağındakı böyük çeşməyanında qala tikərək, onun ətrafında
yüksək yerdə geniş hasar hördülər, bazar, çarsu (meydan), hamam və məscid tikdilər. Müsəlman
(tarixi ilə) 1165 (1751/52) -ci ildə, el camaatının butün evləri — böyüklərin, sənətkarların,
xanın yaxın adamlarının və xidmətçilərinin (ailəsi) Şahbulağı qalasına köçürüldü.
(Xan), tamamilə müstəqil olaraq üç-dörd il Şahbulağında yaşadı. Mərhum xanın gündən-
günə artmaqda olan istiqlaliyyətinin şöhrəti, adamlarının çoxluğu və qüdrətinin səsi ətrafa
yayıldı. Şirvan, Şəki, Gəncə, Iravan, Naxçıvan, Təbriz və Qaradağ xanları Pənah xanın
yanına elçi və məktub göndərib, onunla dost və müttəfiq olmaq istədiklərini bildirirdilər. O
da xanların bə'zisi ilə qohum oldu. Naxçıvan, Təbriz və Qaradağ hakimlərinin hökmü altında
olan Naxçıvanın Zəngəzur, Təbrizin Qapan və Qaradağın Çuldur və Meqri mahallarına əl
uzadaraq hamısına sahib oldu. Onları Qarabağın başqa rəiyyətlərinə qataraq, hamısına
məliklər və sultanlar tə'yin etdi. hamı mərhum Pənah xanın əmrinə tabe oldu və indi də
olmaqdadır
Dördüncü fəsil

MƏRHUM PƏNAH XANIN ADINA XANLIQ FƏRMANI YAZILMASI VƏ ONUN HAKIMIYYƏTI HAQQINDA

Məhrum Nadir şah öldürüldükdən sonra, qardaşı oğlu Əliqulu xan, Adil şah[2] ləqəbilə mərhum Nadir şahın şahlıq taxtına çıxdı. Adil şah tərəfindən Azərbaycan ölkəsinə sərdar
tə'yin edilmiş Təbriz şəhərində yaşayan Əmir Aslan xan, Pənah xanın Qarabağda olan belə bir
şöhrət və istiqlaliyyətini eşitdikdə, öz adından ona (hədiyyə olaraq) at, qılınc və xələt
göndərərək, onu Adil şaha itaət etməyə də'vət və təşviq etdi[3].
Mərhum Pənah xan onun elçilərinə layiq olan hörmət və mehribanlıq göstərdi. Ellərin
bacarıqlı mö'təbər, adlı-sanlı kəndxudalarından bir neçə nəfərini elçilərlə birlikdə Əmir
Aslanın yanına göndərdi. Çünki, hələ belə bir şövkət və dövlət sahibi olan əmirlə düşmənçilik, ədavət və müharibə etmək vaxtı deyildi. (Digər tərəfdən) ətrafda olan bə'zi
vilayətlərin xanları, üzdə dostluqdan və sədaqətdən dəm vurduqlarına baxmayaraq, ürəkdə Pənah
xanın pisliyini istəyirdilər. Buna görə o, Adil şahın dövlətinə itaət etməyə hazır olduğunu
və ona xidmət edəcəyini bildirərək, sədaqətini andıran cavablar və hədiyyələr göndərdi.

[1] T ə r n ə k ü t—Tərtərçayın orta axını hissəsindədir.

[2] A.Bakıxanov yazır ki, o, Əlişah ləqəbilə taxta çıxmışdır (bax: A. Bakıxanov. «Gulüstani-Irəm», Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1951, səh. 159).

[3] Mirzə Adıgözəl bəy yazır ki, Əmir Aslan xan Pənahəli bəyi görmək arzusu ilə gəlib, onunla göruşdü. Bax: Mirzə
Adıgözəlbəy. «Qarabağnamə», .Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1950, səh. 55.

Sərdar Əmir Aslan belə bir itaəti və elçilərin gəlişini Adil şah dövləti üçün böyük xidmət sanıb, Adil şahın hüzuruna məktub yazdı.
Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci [1]ildə Adil şahın (Pənah xana) xan adı verilməsi və Qarabağ hakimliyi vəzifəsinə tə'yin edilməsi haqqında imzaladığı fərman
qiymətli xələt, qızıl yəhərli at və qaş-daşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə, o zaman yaşadıqları Bayat qalasına kəlib çatdı. Sərdar Əmir
Aslan özü də Pənah xana ayrıca töhfələr köndərmiş, Pənah xanın elçi sifətilə köndərdiyi
kəndxudalara xələt və bəxşişlər verib, onlara hörmət və mehribanlıq etmişdi.
Beləliklə xanlıq və hakimlik adı Pənah xana ilk dəfə .mərhum Nadir şahın qardaşı oğlu
Adil şahın fərmanı ilə verilmişdi.
Az bir müddətdən sonra Pənah xana xəbər çatdı ki, mərhum Nadir şahın oğlu Şahrux
Mirzə, Adil şah adlandırılan Əliqulu xanı öldürərək, Xorasanda şahlıq taxtında oturmuş
və Iraq, Azərbaycan və Fars torpaqlarında qarma-qarışıqlıq üz vermişdir.
Bu zaman Pənah xan Gəncə, Iravan, Naxçıvan və xüsusilə ərdəbil vilayətlərini ələ keçirmək və o yerlərin xanlarını özünə tabe etmək qərarına gəldi. Az bir müddətdə onların

bir parasını zorla, bə'zisini isə məktub və elçi göndərmək; və qohumluq vasitəsilə öz itaəti
altına aldı. Xüsusilə, Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə hakim tə'yin etdi. Gəncə xanzadələrindən kefi istədiyi adamı hökumət işinə tə'yin edir, istəmədiyini isə vəzifəsindən
çıxarırdı. O vilayətlərin xanlarının uşaqlarından bir neçəsini girov adı ilə gətirib, Şahbulağı qalasında saxlayırdı.
Bu vəziyyət, Məhəmmədhəsən xan Qacarın Mazandaran, Iraq Azərbaycan tərəflərində özünü
müstəqil e'lan etdiyi günə qədər davam edirdi. Ḥökumət işlərini bir an belə unutmayan mərhum
Pənah xanın işgüzar və bacarıqlı adamları, xanın əmrinə görə məsləhət üçün yığışıb dedilər: «Mərhum Nadir şah vəfat etdikdən sonra bizimlə Əliqulu xan və Sərdar Əmir Aslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi. Indi, çox mümkündür ki,
belə bir münasibat və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan arasında olmasın. Ətraf
xanlarından da bir o qədər xatircəm deyilik Onların Məhəmmədhəsən xanı üzərimizə təhrik
edərək, onunla birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır. (Belə bir vəziyyətdə) Qarabağın elləri, adlı-sanlı adamları qızılbaş qoşunun ayağı altında paymal olar, biz isə
Şahbulağı qalasında elə bir qüvvətli düşmənin və ətraf xanların qarşısında müqavimət
göstərə bilməyib, bütünlüklə qırılarıq. Ona görə bu işin əlacını qabaqdan görmək lazımdır.
Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki,
onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə
daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir».
Bu məsləhəti həmişə xeyirxahlıq köstərən Məlik Şahnəzər bəyə söylədilər və onun məsləhəti və bələdçiliyi ilə Şuşa qalasını tikmək qərarına gəldilər. Xanın bir neçə nəfər
bilici və mə'lumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç
bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə,
güman gələn yerlərdə quyu qazdırıb, müəyyən elədilər ki, buranın bir çox yerlərində su quyuları
qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. (Xan) sevinərək, bir neçə nəfər
öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu.
Islam tarixi ilə 1170, xristian tarixi ilə 1754₂-cü ildə Şahbulağı qalasının sakinləri olan bütün rəiyyətləri — ə'yanın, məliklərin, mülazimlərin, ellərin və bir para kəndlilərin
kəndxudalarının ailələrini köçürüb, bu qalanın içində yerləşdirdi. O vaxta qədər burada
yaşayış evləri yox idi. Bura, şərq tərəfdə, qalanın altı verstliyində yaşayan Şuşa kəndi

əhalisinin əkin yeri və otlağı idi.
Xalqı yerləşdirib, hamıya, xüsusilə özü üçün yurd və imarət müəyyən etdikdən sonra mahir
ustalar, ağıllı işgüzar adamlarla qalanın hasarını çəkdirdi. Mərhum Pənah xanın
tikdirdiyi hasar indi xarab olmuşdur. Yalnız bə'zi yerlərdə divarın qalıqları grünür.
Qalanın tikilişindən bir il keçdikdən sonra Ağa Məhəmməd şahın atası
Məhəmmədhəsən
xan Qacar Iraq və Azərbaycan qoşunu ilə Şuşa qalasını almaq və mərhum Pənah
xanı özünə
tabe etmək məqsədilə Arazdan keçib qalanın dörd ağaclığında çadırlar qurdurdu.
Mərhum
Pənah xanı tabe etmək və beləliklə Şuşa qalasını ələ keçirmək üçün çox düşündü,
tədbirlər
tökdü. Bir ay orada oturdu. Lakin bu qədər çoxlu qoşun ilə qalaya yaxınlaşa bilmədi.
Əksinə,
Qarabağın qoçaq əhalisi Məhəmmədhəsən xan ordusunun at-qatırını və başqa mal-
qarasını
istər açıq, istərsə də gizli surətdə qarət edərək, onun qoşununa çoxlu ziyan vurdu.
1 hicri 1161-ci il, miladi 1748-ci ilə bərabərdir
2 hicri 1170-çi ili miladi 1756—57-ci ilə bərabərdir.
Bu zaman Kərim xan Zəndin Fars məmləkətinin Şiraz şəhərində qüvvət tapması və
qoşun
toplayıb, Iraqı və Mazandaranı almaq niyyətində olması xəbəri Məhəmmədhəsən
xana çatdı.
Məhəmmədhəsən xan, belə bir vəziyyətdə qalanı almaq, Gəncəyə, Şirvana və başqa
yerlərə sahib
olmaq fikrindən əl çəkərək, sür'ətlə Iraq, Fars və Mazandaran tərəfə hərəkət etdi.
(Lakin)
Kərim xan Zənd Məhəmmədhəsən xan gəlib çatana qədər bütün fars vilayətini, Iraq
və başqa
vilayətlərin bir para yerlərini ələ keçirib, Məhəmmədhəsan xanla müharibəyə
hazırlaşmışdı. Bu tərəfdən də Məhəmmədhəsən xan Azərbaycanın, Gilanın və başqa
yerlərin
çoxlu qoşunu ilə Kərim xanı dəf etmək üçün farsa tərəf hərəkət etdi. Lakin baxt və
dövlət
allah vergsi olduğundan, Məhəmmədhəsən xanın bir neçə yaxın adamı xəyanət
fikrinə düşüb,
onu öldürdülər və böyük mənsəb və ən'am almaq təmənnasilə, başını kəsib Kərim
xanın yanına
apardılar. Belə yaramaz işlərdə böyüklər və sərdarların qeyrətini qorumaq
sərdarların
öhdəsinə düşdüyündən Kərim xan, Məhəmmədhəsən xanın qatillərini mərhəmət və
ən'amdan
məhrum edərək, başqaları da öz xeyirxah ağalarına qarşı belə bir xeyanətə əl
atmasınlar deyə
onlara cəza verdi.
Məhəmmədhəsən xan hadisəsindən sonra, Nadir şahın sərdarlarından biri olan
Urmiyalı
Fətəli xan Əfşar, dövlət iddiasilə Urmiya vilayətindən baş qaldıraraq, bütün
Azərbaycanı

tutdu. Mərhum Pənah xanın yanına mahir elçilər göndərib, onu itaətə və ittifaqa də'vət etdi.
Lakin Pənah xan belə sərdarlara itaət etməyi haqlı olaraq, özü üçüi əskiklik və ar bilib,
elçiləri kobud cavablarla geri qaytardı.
Elçilər qayıdıb (yerlərinə) çatdıqdan sonra Fətəli xan, Azərbaycan, Urmiya və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb qalanı almaq, Qarabağı ələ keçirmək və Pənah
xanı aradan qaldırmaq məqsədilə Şuşa qalasına gəlib qalanın bir ağaclığında düşərgə
qurdu.
Gizlində mərhum Pənah xana ədavət bəsləyən Çiləbörd və Talış mahalının məlikləri Fətəli xanın yanına getdilər. Onlar, altı ay qalanın yaxınlığında oturdular. hər neçəgündən
bir, mərhum Pənah xanın qoşunu ilə Fətəli xan ordusu arasında vuruşma üz verir və hər dəfə
mərhum Pənah xanın qoşunu Qızılbaş ordusuna qalib gəlirdi. Bu müddətdə bir iş görə
bilməyən Fətəli xan (vəziyyətinin) gündən-günə çətinləşdiyini və məğlubiyyətinin (artdığını) müşahidə edirdi.
Nəhayət, bir kün, özünün bütün atlı və piyadə qoşunları və adı çəkilən mahalların məliklərinin piyadaları ilə birlikdə hücuma başlayıb, Şuşa çayından keçərək, qalanın yarım verstliyinə çatdı.
Bu tərəfdən də Pənah xan adlı-sanlı igid cavanlar, ellərin, habelə Vərəndə və Xaçın mahallarının qoçaq tüfəngliləri ilə birlikdə, başqa tərəfdən isə ellərin süvari sər-gərdələri mərhum Pənah xanın şücaətli qohumları ilə bərabər hücum edərək Fətəli xan
ordusu vurub-öldürməkdən əl çəkməyincə onları dərin dərələrdə və dar keçidlərdə tutub
öldürməyi davam etdirdilər.
Bu hücumda Fətəli xanın qoşunundan, təxminən iki min nəfər piyada və süvari qırıldı və
əsir düşdü. Məğlub olan (düşmən) sonsuz pərişanlıq və peşimanlıqla öz düşərgəsinə qayıtdı. Pənah xan isə əsirləri və ələ keçən qaniməti götürüb, qələbə və zəfərlə qalaya gəldi.
Bu hadisədən sonra Fətəlixan Əfşar, qoşununun məğlub olması və qış fəslinin yaxınlaşmasına görə, sülh və barışıq təklif etdi. Mahir elçilər göndərib, and-aman içərək
belə və'də verdi: «Əkər Pənah xan, qoşunumdan aldığı əsirləri geri qaytarsa, mənlə ittifaq və
dostluq etsə, qızımın kəbinini onun böyük oğlu Ibrahimxəlil ağaya kəsdirəcəyəm. (Beləliklə
də) biz əbədi qohum və dost olacağıq. Bir şərtlə ki, Ibrahimxəlil ağanı mənim yanıma göndər-
sin. O isə orduda şirni içilib, kəbin kəsildikdən və iki-üç gün burada (qonaq) qaldıqdan
sonra geri qayıtsın».
Pənah xanı xatircəm etmək üçün Ibrahimxəlil ağa qayıdana qədər özünün evladı və qohumlarından üç nəfər adlı-sanlı şəxsi girov adı ilə saxlamaları üçün Pənah xanın yanına

göndərmişdi.
Mərhum Pənah xan Fətəli xanın and-amanına, öladını və qohumlarını göndərməsinə inanıb, Ibrahimxəlil ağanı bir neçə kəndxuda ilə Fətəli xanın ordusuna yola saldı. Fətəli
xan bu xəbəri eşitcək sevindi. Evladından bir neçə nəfəri onu qarşılamaq üçün göndərdi.
Ibrahimxəlil ağanı hörmət, təntənə və çalğı ilə orduya gətirdilər. Saatın nəhs olmasını
bəhanə edərək, Ibrahimxəlil ağanı iki gün ordugahda, kef məclislərində saxladılar. Bu
müddət içərisində qalaya, Pənah xanın yanına dəfələrlə e'timadlı, şirindilli adamlar göndərib, adətləri üzrə adam aldatmaq və öz işlərini düzəltmək üçün bütün fırıldaqları və
lazım olan rəsmi mərasimi əmələ gətirdilər. O iki günün içərisində əsir və dustaqlarını
xilas etdilər. Üçüncü gün isə Ibrahimxəlil ağanı və kəndxudaları dustaq kimi, özlərilə bərabər götürüb getdilər və Urmiya qalasına çatana qədər heç bir yerdə dayanmadılar.
Bu hadisədən mərhum Pənah xan və Qarabağın o ə'yanları çox pərişan, peşman və mə'yus
oldular. Nəhayət, qəmginliyin, çox peşimançılığın faydasız olduğunu düşünərək, Ibrahimxəlil ağanı xilas və Fətəli xanı dəf etmək üçün məsləhət və tədbirlər görməyə başladılar.
Pərvərdigari-aləm, insi-cinsi yaradan xaliq, hər anda və zamanda, düzgün, vəfalı və haqşünas adamların dostu və köməkçisidir. Xüsusilə o, əhd-peymanda və sözündə möhkəm olan,
alçaqlıq və peşimançılıqla nəticələnəcək məkr və hiylədən qaçan şəxslərə müvəffəqiyyət və
qələbə bəxş edər. Buna görə də belə bir zamanda Iraq və Fars torpaqlarında dövlət sahibi
olmuş Kərim xan Zənd allahın köməyilə tam istiqlaliyyət əldə etdi. O, adı çəkilən Fətəli
xanla düşmənçiliyə başlayıb, öz qohumlarından bir nəfəri[1] Fətəli xan müharibəsinə namizəd
edərək onu Iraq və Fars qoşunları ilə Azərbaycana göndərdi, Fətəli xan da bu xəbəri eşitcək,
Kərim xanın qoşunları gəlib çatmamış, Azərbaycanın və ətraf (nahiyələrin) bütün qoşunları ilə onun qarşısına çıxdı. Iki tərəfin qoşunu Isfahan yaxınlığında bir-birilə üzləşib döyüşə başladılar. Kərim xanın qoşunu məğlub, qoşun sərdarı olan qohumu isə döyüş
meydanında həlak oldu. Fətəli xan zəfər tapıb, Iraq vilayətinin bir parça yerlərini də aldıqdan sonra geri qayıtdı.
Bu hadisədən sonra Kərim xan Zənd intiqam almaq fikrinə düşdü. Çoxlu qoşunla Fars
vilayətindən hərəkət edərək, Fətəli xanı dəf etmək əzmilə Azərbaycana tərəf getdi. Azər-
baycana çatmamış bir e'timadlı adamını mərhum Pənah xanın yanına göndərib, ona qarşı olan
lütf və mehribanlığını və onunla müttəfiq olmaq istədiyini bildirdi. Göndərdiyi

məktubunda belə yazmışdı: «Fətəli xan bizim nəinki təkcə düşmənimiz, hətta qanlımızdır.
Sizə qarşı da olduqca yaramaz işlər görmüş, andını, peymanını pozmuşdur. Sənin oğlunu
məkr və hiylə ilə aparıb məhbus etmişdir. Indi var qüvvə ilə bizə kömək etməli və bu işdə heç
şeydən müzayiqə etməməlisən. Çünki intiqam alsaq və oğlunu xilas etsək, siz sevindiyiniz kimi
biz də arzumuza çatmış olacağıq».
Pənah xan yalançı və hiyləgər düşməni aradan qaldırmaq üçün qarşısına çıxmış belə bir
təsadüfü qənimət bilib, müntəzəm qoşunu və Qarabağın adlı-sanlı süvarilərilə Azərbaycan
torpağında Kərim xanla görüşdü. Kərim xan ona qarşı böyük izzət və ehtiram göstərib,
ən'amlar bəxş etdikdən sonra, Fətəli xanı birlikdə dəf etmək üçün Urmiya vilayətinə tərəf
yola düşdülər.
Fətəli xan da ixtiyarında olan vilayətlərin çoxlu qoşunu ilə onların qarşısına çıxdı.
hər iki qoşun müharibəyə başladı. Nəhayət, Fətəli xan məğlub olub Urmiya qalasına çəkildi.
Bir neçə gündən sonra, itaətdən başqa çarə görməyib, Kərim xanın isə ümid verici və'dlərini
eşidib, onun yanına gəldi[2]. Kərim xan Urmiya qalasını ələ keçirib müstəqil oldu.
Iranda hələ müstəqil padşah olmadığından Kərim xan özünə Iran şahının vəkili adı və
ləqəbi verib deyirdi: «Bir padşah aralığa çıxıb taxta oturmayınca mən padşahın vəkiliyəm».
Ona görə də Kərim xanı vəkil adlandırırdılar. O, Urmiyada dustaq olan Ibrahimxəlil ağanı
zindandan buraxdırıb öz yanına çağırdı, ona at, qılınc, xələt və Qarabağ xanlığı və
hakimiyyəti fərmanını verib, hörmətlə təmtəraqla Qarabağa yola saldı. Pənah xana qarşı olan
məhəbbətinə görə ona lutf və mehribanlıq göstərib dedi: «Mənə qarşı göstərdiyin sədaqətin
və köməyin əvəzini çıxmaq üçün bir neçə müddət mənim yanımda qalmağını xahiş edirəm». Onu
özü ilə bərabər Şiraza apardı.
Mərhum Ibrahimxəlil xan Qarabağa kəldi. Qarabağın və başqa vilayətlərin camaatı ona
itaət etdi, o isə hökumət və xanlıq taxtına çıxıb kimsəyə itaət etmədən, müstəqil olaraq
hökmranlıq etməyə başladı.
Mərhum Pənah xan az bir müddət Kərim xanın paytaxtı olan Şirazda qaldıqdan sonra əcəli
çatıb, Şirazda allahın rəhmətinə getdi. Cənazəsini böyük hörmətlə Qarabağa kətirib, indi
Ağdam adı ilə məşhur olan, özünün satın aldığı halal mülkündə dəfn etdilər. Allah ona
rəhmət eləsin.

Işlərin gedişi və baş vermiş hadisələrdən mə'lumdur ki, mərhum Nadir şah öləndən sonra rəhmətlik Pənah xan on iki il davam edən hakimiyyəti dövründə həmişə fəth, zəfər, baxt
və dövlət sahibi olmuşdur. Azərbaycan vilayətinin çox hissəsi onun hökmü və itaəti altında
idi.

1 Mirzə Adıgözəl bəy yazır ki, Kərim xan Zənd Fətəli xanın müharibəsinə öz qardaşı Iskəndər bəyi göndərdi. Bax:
Adıgözəl bəy Göstərilən əsəri, səh. 77.

2 Bakıxanovun yazdığına görə bu hadisə 1176 (1763)-cı ildə baş vermişdir (bax: A. Bakıxanov. Göstərilən əsəri,
səh. 165).

Kərim xan Fətəli xanı özü ilə aparıb, Isfahanın yaxınlığında, qohumu müharibədə öldürüldüyü yerdə öldürdü. (Beləliklə də) ondan intiqamını aldı, habelə mərhum Pənah xana
yalandan and içdiyi, məkr və hiylə işlətdiyi üçün. allah onu cəzasına çatdırdı. Məkr, hiylə və
yalan toxumundan peşimançılıq və zərərdən başqa bir şey bitməz. Allah məkri, hiyləni,
yalandan and içməyi və əhdi pozmağı öz bəndələrinə qadağan etmişdir. Təcrübədə təsdiq
olmuşdur ki, dostuna, xeyirxahına, böyüyünə yalan danışan, hiylə və xəyanət işlədən, allahın
əmrilə böyüklüyə çatmış böyük şəxsin mərhəmətini saymayıb, ona xor baxan adamın cəzası
həmişə zərər və peşimançılıq olmuşdur. «Allah mükafat və cəza verəndir. (O), xeyr işə
mükafat, şərr işə (isə) cəza verər».

Beşinci fəsil

MƏRHUM IBRAHIM XANIN HAKIMIYYƏTI VƏ O ZAMANIN QAYDALARI VƏ HADISƏLƏRI HAQQINDA

Mərhum Ibrahim xan müsəlman tarixi ilə 1174-cü xristian tarixi ilə 1756-cı[1] ildən 1221
(1806)-ci ilə qədər Qarabağ hökuməti taxtında oturmuş, Iran və Rum padşahlarına itaət
etmədən və boyun əymədən müstəqil hökmranlıq etmişdir. Onun hökmü və fərmanı Şirvan,
Şəki, Gəncə, Iravan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, Iraq
və Azərbaycan sərhəddi olan Qaplankuhda belə işlərdi. Vilayətlərin xanları mərhum Ibrahim
xanın hökmü və əmri ilə tə'yin edilər və ya vəzifədən kötürülərdi[2]. O, Avar və Dağıstan valisi
Ümmə xan Nusal xan oğlunun möhtərəm bacısını alaraq onunla qohum olmuşdu. Zərurət zamanı
Ibrahim xan Dağıstan və ləzgi vilayətindən qoşun istəyərək, onu Ümmə xan və başqa
sərkərdələrlə birlikdə Qarabağ vilayətinə gətirib öz övladı, sərkərdələri və Qarabağ qoşunu
ilə lazım gələn yerlərə göndərir, istədiyi adamı tənbeh edər və itaəti altına alardı.

Bundan başqa, Şahsevən, Qaradağ, Xoy və Gəncə vilayətlərinin xanları ilə də qohum
olmuşdu. Bunların hamısı ya güc, ya da qohumluq vasitəsilə onun itaətini ürəkdən qəbul
etmişdilər. O, hətta Təbriz və Qaradağ vilayətlərinin bə'zi mahallarını öz adlı-sanlı
sərkərdələrinə bağışlamışdı ki, onların gəlirindən mənfəət götürsünlər. Padşah adı
daşımadığına baxmayaraq, Ibrahim xanın dövlət və cəlalı Iran padşahlarının cah-
cəlalından əskik deyildi. Adı çəkilən vilayətlərin xanlarının övladı həmişə Şuşa
qalasında, mərhum Ibrahim xanın yanında girov sifətilə yaşayırdılar.
Bu vəziyyət Şirazda girov halında saxlanılan Ağa Məhəmməd xan Məhəmmədhəsən xan oğlu
Qacarın, Kərim xanın vəfatından sonra, (o şəhərdən) qaçdığıgünlərə qədər davam edirdi.
Səltənət iddiasında (olan Ağa Məhəmməd xan) bir neçə il çalışdıqdan sonra Iraq və
Farsı tutub, Tehran şəhərini paytaxt etdi. O, müsəlman tarixilə 1107 (1695—96)-ci ildə[3]
Azərbaycan vilayətinə gəlib, Iravan və Talış vilayətindən başqa Arazın cənub tərəfində olan
bütün vilayətləri aldı.
Bu hadisələrdən əvvəl o, Ibrahim xana xələt, qılınc, qızıl yəhər və əsbablı atgöndərib,
itaətə də'vət etmişdi. Aralarında zahiri hörmət və dildə itaət var idi. Elçi gəlib-gedirdi. O
cümlədən Ibrahim xan girov adı ilə şirin dilli, bacarıqlı bir şəxs olan Mirzə Vəli
Baharlı ilə birlikdə əmisi oğlu Əbdüssəməd bəyi onun yanınagöndərmişdi. Şah da onlara
olduqca hörmət edib, öz yanında saxlayırdı.
Bu arada Ağa Məhəmməd xan Kirmanda səltənət iddiasında olan düşməni, qoçaq və səxavətli
Lütfəli xan Zəndə qalib gəlib, Kirman əhalisinin hamısını qırdı. Ibrahim xanla Ağa
Məhəmməd şahın arasını poza biləcək bə'zi işlər üz verdi. Əbdüssəməd bəy Mirzə Vəli
Baharlı və neçə nəfər nökəri ilə Kirmandan qaçdı. Bunların ardınca atlılar göndərildi.
Çaparlar gecə-gündüz yol gedərək, onlardan qabağa düşüb, Sərcəm kəndi əhalisinə xəbər
verdilər. Atlı və piyadalar Qızıl Özən çayının kənarında yolun üstünü kəsib Əbdüssəməd

[1] Hicri 1174-çü il 1760—61-ci ilə bərabərdir. Mirzə Adıgözəl bəy yazır ki, Ibrahim xan Qarabağı hakimliyə 1173
(1759)-cü ildə tə'yin olunmuşdur.

[2] Burada müəllif açıqdan-açığa mübaliğə edir. Ətraf vilayətlərin xanlarına böyük tə'siri olduğuna baxmayaraq
Ibrahim xan, Iran dövlətindən icazəsiz xanları tə'yin etmək və ya vəzifədən kənar etmək iqtidarına malik deyildi.
Xüsusilə, Təbriz, Xoy, Marağa və Iravan xanları heç bir vaxt ondan asılı olmamışlar. Bu mübaliğə Mirzə Adıgözəl bəydə də müşahidə olunur. Ehtimal etmək olar ki, Mirzə Adıgözəl bəy əsərini yazdığı vaxt Mirzə Camalın
kitabından istifadə etmişdir (bax: Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, səh. 77).

[3] Bu tarix yanlışdır; 1207 (1792—1793)-ci il olmalıdır.

bəylə vuruşdular. Əbdüssəməd bəy güllə ilə dizindən yaralandı. Onu yoldaşları ilə bərabər

tutdular. Mirzə Vəli də tutuldu. Əbdüssəməd bəy həmin yaradan orada vəfat etdi. Başqa
dustaqları Mirzə Vəli ilə birlikdə şahın yanına aparıb, Tehran şəhərində həbs etdilər.
Ağa Məhəmməd şah Şuşa qalası altında olanda mərhum Ibrahim xanın elçiləri hərdən
bir onun yanına gəlib gedərdilər. Bir gün Ağa Məhəmməd şah, Ibrahim xanın sifa-
rişlərindən qəzəblənib dustaqların e'damı haqqında fərman verdi. Onun əmrilə Mirzə Vəlini
Tehranda topun ağzına bağlayıb atdılar. On nəfərdən ibarət olan başqa dustaqları da
öldürdülər. Onlardan heç birini sağ qoymadılar. Allah onlara rəhmət eləsin.

Altıncı fəsil

(BƏ'ZI) ĦADISƏLƏR VƏ AQA MƏĦƏMMƏD ŞAĦIN ÖLÜMÜ ĦAQQINDA

Ibrahim xanla Ağa Məhəmməd şahın münasibəti pozularaq aralarında inciklik əmələ
gəldiyindən (şah) 1209 (1794—95)-cu ildə Tiflis, Iravan, Qarabağ və Talış vilayətlərini
qəsb etmək üçün böyük ordu və çoxlu əsgərlə Azərbaycana tərəf hərəkət etdi. Əvvəlcə,
sərkərdələrinin ən görkəmlisi olan Əliqulu xan Şahsevəni başqa xanlarla birlikdə Iravan
qalasının üstünə göndərdi. Özü isə bütün Iraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə
Şuşa qalasının üstünə gəlib, qalanın bir ağaclığında, Gövaxan düşərgəsində ordusunu
yerləşdirdi.

Tiflis valisi şövkətli Irakli xan, Iravan hakimi Məhəmməd xan və Talış hakimi Mir
Mustafa xan, Ağa Məhəmməd şahın itaətini qəbul etməyəcəkləri və bir-birinə kömək edib,
müttəfiq olacaqları haqqında Ibrahim xanla and içmişdilər. (Buna görə Ibrahim xan) Qarabağ
ellərinin bir parasını Tiflisə, bir parasını isə Şirvan vilayətinə özü tə'yin etdiyi
Mustafa xanın yanına göndərdi. Siyahi və dəftərdə adları qeyd olunmuş yerdə qalan elləri və
qoşunu Qarabağ dağlarında və qala içərisində yerləşdirib, Qarabağ elləri və mahallarından
çoxlu piyada və atlı topladı; qalanı qorumaq üçün lazım olan bütün vəsaiti, böyük və kiçik
topları qurdurub, şahla müharibəyə hazırlaşdı.

Ağa Məhəmməd şah, otuz üç gün qala ətrafında qaldığına baxmayaraq, o qədər böyük qoşunla
qalanın beş verstliyindən axan çaydan keçə bilmədi. Qarabağın atlı və piyada qoşunu, ellərin,
kəndlərin sərkərdələri, Vərəndə, Dizaq və Xaçın mahallarının məlikləri meşədə, yollar və
keçidlərdə Qızılbaş qoşununu tutub qarət edirdilər. hər gün dəstə-dəstə at, qatır, dəvə və
başqa tədarükatı, ordu üçün vilayətlərdən göndərilən taxıl karvanlarını qarət və əsir edərək,
mərhum Ibrahim xanın yanına gətirirdilər. Iş o yerə çatmışdı ki, o vaxtın hesabilə bir

qatırı dörd manata, dəvəni altı, bir baş yaxşı atı isə on manata satırdılar. Düşmən Qarabağ
qoşununun gecə basqınlarından qorxaraq, ordugahın ətrafında möhkəm bürclər tikmişdi. Bir
gecə Vərəndə mahalının piyadaları böyük bir dəstə ilə gedərək, Ağa Məhəməd şahın özünəməxsus tüfəngliləri tərəfindən mühafizə olunan böyük bir bürcü alıb, bir saatın içərisində bütün tüfəngliləri qırdılar və sağ qalan iki-üç nəfəri gün çıxan vaxtı mərhum
Ibrahim xanın yanına gətirdilər. Istər gecə, istərsə gündüz, Qızılbaş qoşununu bir an belə
rahat qoymurdular. Üç-dörd dəfə şah özü böyük qoşunla çayı keçmək və qalaya yaxınlaşmaq
istədi. Bu tərəfdən cəld piyadalar, qoçaq süvarilər sərkərdələrlə birlikdə (şahın) qabağına
çıxıb, qəhrəmancasına döyüşdülər və onu məğlub edərək geri qaytardılar.
Bu arada Gəncə hakimi Cavad xan vaxtilə mərhum Ibrahim xandan üz çevirmiş və Gəncə
vilayətinə gedib, Cavad xanın yanında gün keçirən Çiləbörd mahalının məliki Məlik Məcnunla birlikdə Ağa Məhəmməd şahın yanına gəldi. Ağa Məhəmməd şah bunların məsləhətilə min məğlubiyyət və pərişanlıqla qalanın yanından köçüb, Gürcüstanı istila etmək
məqsədilə Tiflisə tərəf hərəkət etdi.
Mərhum Ibrahim xan şahın hərəkətindən qabaq şövkətli Gürcüstan valisinə belə xəbər
göndərdi: «Ağa Mələmməd şah qalanı işğal etməkdə aciz qalmışdır, qoşununa və ordusunun
minik heyvanına çoxlu ziyan dəymişdir. Bu məğlubiyyətini düzəltmək üçün Tiflisi almaq və
Gürcüstanın kəndlərini qarət etmək fikrindədir. Onun fəsadının və istilasının qarşısını almaq tədarükündə olun».
Ağa Məhəmməd şah həqiqi mühasirə dövrü keçirmiş qoşununun və heyvanlarının istirahəti üçün ordusunu Ağdam ətrafında yerləşdirdi. Burada bir aydan artıq istirahət
etdikdən sonra, Gürcüstan vilayətini və Tiflis şəhərini almaq üçün yola düşdü. Cavad xanla
Məlik Məcnun hər yerdə qoşunun qabağında gedib şaha bələdçilik edirdilər. Tiflisə çatdıqdan sonra, qısa bir müddət ərzində şəhəri işğal edərək[1] yandırdılar. Şəhərin və yaxın
kəndlərin əhalisini qarət və əsir etdikdən sonra Azərbaycana qayıtdılar. hər yerdə Kür boyu ilə
irəliləyərək Cavad kəndi yaxınlığında Arazdan keçdilər, Muğan düzündə qışlaq qurub, qışı
orada başa verdilər.
Yaz vaxtı, Iravan qalası və vilayəti hələ işğal olunmadığı bir halda, Fars ölkəsində yenə
həyəcan, Kirman və sairədə iğtişaşlar üz verməkdə idi (Buna görə şah)işləri nəzmə salmaq
üçün Fars vilayətinə getdi.
Һaman yaz fəslində, şah farsda olduğu zaman, Ibrahim xan Dağıstandan qoşun gətirtdirib

Gəncəni mühasirə etdi. Tiflisin bərbad olmasına (Cavad xan) bais olduğu üçün Ibrahim xan bu
işə Kürcüstan valisini də cəlb etdi. Oğlu və bacısını Ibrahim xanın yanına girov göndərdi.
Bir daha Ibrahim xanın itaətindən çıxmayacağına söz verdi. Məlik Məcnun isə vuruşma
zamanı öldürüldü.
Ağa Məhəmməd şah hələ Fars və Xorasan torpağında olduğu zaman, böyük sərdar general-
anşef qraf Valeryan Zubov əzəmətli imperatriça Yekaterinanın əmri və fərmanı üzrə saysız-
hesabsız qoşunla Dərbəndəo çatıb2 qalanı aldı. Oradan Şamaxıya gəlib şəhərin yaxınlığında ordu qurdu.
Mərhum Ibrahim xan oğlu Əbülfət xanı Qarabağın bir neçə bəyzadəsi ilə birlikdə töhfə,
hədiyyələr və cins atlarla, tam bir razılıq və rəğbətlə, böyük sərdar Valeryan Zubovun hüzuruna
göndərib, yüksək Rusiya dövlətinə səmimi qəlbdən itaət edəcəyini və sədaqətini bildirdi.
Əzəmətli imperatriçanın adına səmimiyyət və sədaqətini andıran bir ərizə də yazdı.
Böyük sərdar Əbülfat xanı və Qarabağ bəyzadələrini lazımi hörmət və tə'zimlə qarşılayıb,
Ibrahim xanın ərizəsini xanın e'timadlı adamı və öz eşik-ağası ilə Dərbənd və Qızlar yolu
vasitəsilə əzəmətli imperatriçanın hüzuruna göndərdi. Bir knyaz vasitəsilə Ibrahim xana
qiymətli töhfə və hədiyyələr göndərib, onu əzəmətli padşahın əbədi mərhəmətinə ümidvar etdi.
Ibrahim xanın, oğlunu böyük sərdarın yanına göndərməsi xəbəri ətraf xanların qulağına
çatdıqda Talış xanı Mir Mustafa xan, Şirvanlı Mustafa xan, Cavad xan, hətta Iravan,
Naxçıvan, Xoy və Qaradağ xanları mərhum Ibrahim xanın yanına elçilər göndərib dedilər ki,
biz Ibrahim xanın məsləhətindən çıxmarıq. (O),Rusiya dövlətinə itaət etməyi məsləhət gördüyü
üçün biz də mərhəmətli Rusiya padşahına səmimiyyətlə itaət etməyi qəbul edəcəyik. Ibrahim xan
xanlardan aldığı bütün məktubları təzədən böyük sərdar Zubovun hüzuruna göndərdi.
Gürcustan valisinin Şirvan, Xoy, Iravan və başqa xanlara nisbətən daha qədim ocaq, geniş
torpaq və böyük dövlət sahibi olduğuna baxmayaraq, o1ə, Ibrahim xanın məsləhətindən kənara
çıxmırdı. Çünki Avar və Dağıstan hakimi mərhum Ümmə xan və o yerlərin başqa əmirləri
Ibrahim xana yaxın və qohum olduqları üçün ona itaət edirdilər. Gürcüstan valisi ilə mərhum
Ibrahim xanın arası pozulduğu zaman Ümmə xan və başqa Dağıstan xanları Ibrahim xanın
göstərişi üzrə böyük qoşunla Gürcüstana gedib, çoxlu ziyanlar verirdilər. Məsələn,

1199(1784—85)-cu ildə Ibrahim xanla valinin arası pozulduğu zaman, Avar hakimi Ümmə xan
böyük qoşunla Gürcüstana gedib, Sıqnaq qalasını və Gümüşxananı zəbt etdi, çoxlu adam qırdı,
əhalinin yerdə qalan əyal və uşaqlarını əsir edərək, bir çox ətraf kəndləri qarət elədi.
Oradan Axısqa vilayətinə, Süleyman paşanın yanına gedərək qışı orada qaldı. Rum
sultanından çoxlu xələt və ən'am aldı. Yazda yenə Gürcüstandan Dağıstana qayıtdığı zaman
keçid və sərhəd başında olan Vaxan qalasını mühasirə etdi. (Gürcü) knyazlarından knyaz
Abaşidze öz əhl-əyalı ilə bu möhkəm qalada yaşayırdı. (Ümmə xan) qalanı zəbt edərək, camaatın
çoxunu öldürdü. Qalanın yerdə qalan arvad-uşağını əsir, mal-dövlətlərini isə qarət etdi.
Knyaz Abaşidzenin bir qızını bir para şeylərlə töhfə və hədiyə olaraq Ibrahim xanın yanına
göndərdi. Ibrahim xan isə onun kəbinini özünə kəsdirdi. Knyaz Abaşidzenin o qızından bir
oğlan və bir qız oldu. Knyaz Abaşidzenin başqa bir qızını Ümmə xan aldı. Bu cəhətdən
valinin Ibrahim xana ehtiyacı çox idi. Şirvan, Şəki, Gəncə, Iravan, Xoy, Qaradağ, Naxçıvan,
Talış və Təbriz xanları, habelə Şahsevən və Şəqaqi xanları mərhum Ibrahim xana itaət
edərək, onun sözündən çıxa bilmədikləri də (buna bir səbəb idi). Tiflis valisi də ehtiyat
edərək, yüksək Rusiya dövlətinə səmimiyətlə itaət etməyə razılıq verdi, elçi və ərizə göndərdi.
Hamı yüksək (Rusiya) dövlətinə itaət etməyə hazırlaşdığı zaman, əzəmətli imperatriça
vəfat etdi[3]. Böyük sərdar Zubov Əbülfət xanı, Qarabağın bəyzadə və kəndxudalarını böyük
hörmət və çoxlu ən'amla yola salıb, mərhum padşah Pavelin əmrinə görə geri qayıdacağını
Ibrahim xana xəbər verdi.

[1] Ağa Məhəmməd şah Tiflis şəhərini 1795-ci il sentyabrın 12-də almışdır.

[2] Qraf Zubovun qoşunu 1796-cı il may ayının 2-də Dərbəndə yaxınlaşdı.

[3].Imperatriça II Ekaterina 1796-cı il. noyabr ayının 6-da vəfat etmişdir.

Bu xəbər həm qəm-qüssəyə, həm də Ağa Məhəmməd şahın ədavətinin artmasına səbəb oldu.
Çünki o, mərhum Ibrahim xanı tələfat vermədən, xoşluq və mülayimliklə özünə tabe etmək
fikrində idi. Lakin Ibrahim xanın müharibəsiz əbədi Rusiya dövlətinə itaət edib, səmimiyyət
göstərməsi, islam və Iran padşahından üz çevirməsi onu olduqca qəzəbləndirmişdi. (Buna
görə) mərhum Ibrahim xanı yox etmək qərarına gələrək, yaz fəslində böyük qoşunla Azərbaycana
tərəf hərəkət etdi[1].

Qarabağ vilayətində üç il davam edən quraqlıq nəticəsində taxıl və başqa bitkilər məhsul
vermədiyindən, şiddətli qəhətlik baş vermişdi. Taxılın qiyməti o qədər qalxmışdı ki, hətta
bir çetvert buğdanı o vaxtın pulu ilə 45 manata güçlə almaq olurdu. Iş çətinliyə düşdü. Ağa
Məhəmməd şah Qızılbaş qoşunu ilə Araz çayı kənarına çatdı. Azuqənin qəhətliyindən və son
neçə ilin əziyyətindən sonra Şuşa qalasında belə bir güclü padşahın qarşısında durmaq
çətin idi. Əlacsız qalan (Ibrahim xan) arvad-uşağı, qohumları, mə'ruf bəylərin ailəsi və
sədaqətli xidmətçilərn ilə birlikdə qaladan köçüb, Car və Tala tərəfə getdi ki, orada dayanıb,
Dağıstan, Kürcüstan və başqa vilayətlər kömək edərlərsə, tədarük görüb, müharibəyə
hazırlaşsın, əks təqdirdə oradan Dağıstana, öz qohumu Avar hakimi Ümmə xanın evinə gedərək
Ağa Məhəmməd şahın əziyyətindən qorunsun.
O zaman mərhum xanın yanında olub, ondan ayrılmaq istəməyən xanlar arasında kürəkəni
Nəsir xan, Əta xan Şahsevən, yenə kürəkəni olan Şəki vilayətinin hakimi Səlim xan, Şəki
vilayəti. və Şahsevən bəyləri va onların övladları da var idi.
Ağa Məhəmməd şah Araz qırağında Ibrahim xanın qaladan çıxıb getdiyini eşitdikdə ardınca sərkərdələrlə birlikdə iki minə yaxın atlı göndərdi, Gəncə yolunda və ya Kür kənarında xəbərdar olub, ona çatmalarını əmr etdi. Göndərilən haman Şahsevən qoşunu
Tərtərçay körpüsünün yaxınlığında mərhum Ibrahim xanın köç və camaatına çataraq döyüşə
başladı. Köç-külfətə və başqa adamlara bir zərər toxunmadı. Onlar köçün bir para şeylərini
qarət edib geri qayıtdılar.
Ibrahim xan Kür çayı və Şəki vilayətindən keçərək, Balakən və Car torpağına gəldi. Car və
Tala kəndxudaları və başçıları mərhum Ibrahim xanı başqa xanlarla birlikdə tutub Dağıstana buraxmamaları haqtında Ağa Məhəmməd şahdan fərman aldıqlarına baxmayaraq Car,
Balakən və Ilisu əhalisi uzun müddət Ibrahim xandan məhəbbət və ən'am gördüklərindən və
həmişə onun itaətində olub, əmirlərini icra etdiklərindən (xanın) qeydinə qaldılar. Ona la-
zım olan xeyirxahlıq, hörmət və qonaqpərəstlik göstərərək, onu özlərindən razı saldılar. Onu
iyirmi gün Balakən torpağında saxladılar. Bu zaman Ağa Məhəmməd şahın Şuşa qalasında
öldürülməsi xəbəri Ibrahim xana çatdı.
Ağa Məhəmməd şahın öldürülməsinin təfsilatı belədir: Ibrahim xan qaladan çıxıb Balakənə getdikdən sonra Ağa Məhəmməd şah heç bir maniəyə rast gəlmədən Şuşa qalasına

girib bir həftə orada qaldı. Bir kecə xoşu gəlmədiyi bir işə görə Səfərəli bəy və Abbas bəy
adlı iki nəfər yaxın xidmətçisinə acıqlanıb dedi: «Səhər açılan kimi hər ikinizə ağır cəza
verəcəyəm». Onlar bilirdilər ki, şah heç vaxt öz dediyindən və buyurduğundan dönmür. Odur ki,
canlarının qorxusundai səhər açılana qədər onu öldürməyi .lazım bildilər. Sübh açılan
zaman, şah yuxuda ikən şahın otağına girib iti xəncərlə onu öldürdülər. Qapıları bağ-
ladılar. Şahın cəvahir bazubəndini, tacını və həmayilini götürüb, Sadıq xan Şəqaqinin
yanına getdilər və əhvalatı ona söylədilər.
Sadıq xan şahın qorxusundan onların sözünə inanmadı. Şaha heç bir inamı və
xatircəmliyi olmadığından və həmişə canının qorxusunu çəkdiyindən bu əhvalatı da şahın
hiyləsi təsəvvür edərək, onların sözünə inanmadı. Nəhayət, bir çox möhkəm andlardan sonra
xatircəm oldu. Lakin yenə, böyük qorxu içərisində idi, əvvəlki qayda ilə Ağa Məhəmməd şahın
yaşadığı Ibrahim xanın böyük oğlu rəhmətlik general-mayor Məhəmmədhəsən ağanın evinə
girdi. hər yerdə tam bir ədəblə irəliləyərək, şah yatan otağın pərdəsini qaldırdı. Baş əydi və
yavaş-yavaş otağa girdi. Səfərəli bəy nə qədər onu ürəkləndirirdisə də, o, yenə qorxurdu. Səfə-
rəli bəy qabağa düşərək, yorğanı şahın başından çəkdi və onun xəncərlə parçalanmış
cəsədini ona göstərdi. Sadıq bəy tab gətirməyərək tez haman bazubəndi, tacı və həmayili götürüb
öz mənzilinə gəldi və şayiə yaydı ki, şah ona Gəncə və Gürcüstana getməyi əmr etmişdir. Bütün
adamlarını, Şəqaqi qoşununu və şahın qatillərindən biri olan Abbası özü ilə götürüb qaladan çıxdı. Səfərəli bəy qalada qaldı.

ı Bu hadisə 1797-ci ildə baş vermişdir. Bax: N. Dubrovin. «Istoriя voinı i vladıçestva russkix na Kavkaze», Ş
cild, SPb, 1886 səh. 209.

Sadıq bəyin getməsindən iki saat keçməmişdi ki, şahın öldürülməsi xəbəri qalanın
içərisinə yayıldı Qızılbaş xanları çaşmış və pərişan bir halda, toplaya bildikləri adamları ilə birlikdə dəstə-dəstə qaçmağa üz qoydular.
Şəhər əhalisi tökülüşüb, əllərinə keçən adamları soyundura-soyundura imarətə daxil oldular. Imarətin şeyləri, xalı-gəbəsi və şahın başqa qızıl, gümüş və cavahiratı qarət edildiyi zaman igidliyi və şücaətilə məşhur olan mərhum Ibrahim xanın qardaşı oğlu Məhəmməd bəy xəbər tutaraq, bir neçə nəfər nökəri ilə imarətin qapısını kəsdi. hər kəs əlinə
düşəni aparmışdı. (O), yerdə qalan şeyləri camaatın əlindən aldı, cəvahirdən və qızıldan
(qayrılmış) alətləri, qızıl-gümüş qab-qacağı, xalı-gəbə, pul və başqa şeyləri tamamilə ələ
keçirib,. Məhəmmədhəsən ağanın evindən öz evinə apardı. Qalanın içərisində hökumət və divan

işlərilə məşğul oldu. Ağa Məhəmməd şahın kəsilmiş başını öz məktubu ilə birlikdə qədim
xidmətçilərindən[1] birinin vasitəsilə Balakənə mərhum Ibrahim xanın yanına göndərdi.
Şahın başı Ibrahim xanın hüzuruna çatdıqda onun öldürülməsi hamıya yə'qin oldu. Nəcabətin
və ehtiramın tələbinə görə, şahın başını tam bir hörmətlə, qüsl və kəfən etdirib, lazımi
_____dini mərasim qaydalarını bilən yaxşı mö'təbər mollalarla Cara göndərərək, o yerin böyük
adamlarının qəbristanlığında dəfn etdirdi[2].
(Xan) bir para maniələrə görə Qarabağa gedə bilməyib, üç ay Balakəndə qaldı, hamı, xüsusilə
Gürcüstan valisi, Gəncə hakimi Cavad xan və şirvanlı Mustafa xan töhfələr, hədiyyələr
göndərib, onunla muttəfiq və bir olmaq arzusunda olduqlarını bildirirdilər. Çünki qüvvətli
düşmən olan padşah artıq ölmüşdü. Bütün Azərbaycanın və başqa yerlərin xanları həmişə
mərhum Ibrahim xanın hökmü və itaəti altında olub, uzun müddət onun əzəmət və şövkətini
gördüklərindən hər şeydən əvvəl istəyirdilər ki, onun mübarək xatırını özlərindən razı
salsınlar, onunla möhkəm əlaqə bağlasınlar. Məhəmməd bəy isə mərhum Ibrahim xan gələnə
qədər Qarabağ vilayətində hökumət işlərilə məşğul idi.
Balakəndə bir ay qaldıqdan sonra Avar hakimi Ümmə xan və başqa Dağıstan sərkərdələri
yeyinti və geyim şeylərindən ibarət böyük tədarük və çoxlu qoşunla mərhum Ibrahim xanın
yanına gəlib, belə bir böyük əmirin hörmətinə layiq qohumluq, mehribanlıq və qonaqpərəstlik
mərasimini yerinə yetirdilər. Təkcə mərhum xana, onun adlı-sanlı oğullarına və Qarabağın
bəylərinə deyil, hətta Şahsevən xanları və onların bəyzadələrinə də hörmət edib, xərc və azuqə
verməkdə heç bir qüsur göstərmədilər.
Ümmə xanın gəldiyindən iki ay keçdikdən sonra, Ibrahim xan Dağıstan qoşunu və sərkərdələri, habelə Şahsevən və Qarabağ camaatı ilə birlikdə Balakəndən Qarabağa tərəf
hərəkət etdi. Qarabağ əhlinin onun əleyhinə çıxması və müxalifət köstərməsi, habelə cavanlıq
qürurundan başqa,əlinə bu qədər dövlət və şahlıq vəsaiti düşən Məhəmməd bəyin şeytana uyub
müxalifət köstərməsi və özündən başqasını tanımaq istəməməsinin qarşısını almaq üçün xan
Qarabağa hərəkət etmədən əvvəl, o zaman Mehdiqulu ağa adlanan Mehdiqulu xanı Qarabağ
bəylərinin bir neçə övladı ilə oraya göndərdi.

Məhəmməd bəy Mehdiqulu xanın bəyzadələrlə Qarabağa gəlişindən sonra səmimiyyətdən,
düzlükdən və Ibrahim xanın itaətindən çıxmayacağından danışırdısa da, ürəyində hakimiyyət
həvəsinə düşmüşdü. O, bir para dələduzu, xain və qorxaqları başına toplayıb, hökuməti öz
əlinə almaq istəyirdi. Mehdiqulu xan zəruriyyətə görə onunla yumşaq rəftar edirdi, çünki
pərdəni yırtmaqla bir iş görə bilməzdi. O, gah ətrafda, gah da qalanın içində gəzir, həqiqəti
mərhum xana yazıb gözləyirdi. Bu xəbər mərhum Ibrahim xana Kür qırağında çatdıqda
övladlarının ən böyüyü mərhum Məhəmmədhəsən ağanı beş yüz nəfər ləzgi qoşunu və Qarabağ
sərkərdələri ilə tə'cili olaraq yola saldı.
Mərhum xanın gəlmək xəbərini eşidən Məhəmməd bəy Qarabağ ellərini Araz kənarına
köçürtmək və müxalifət etmək fikrinə düşdü. Mərhum Məhəmmədhəsən ağa, Məhəmməd bəyin
qoşunu və tərəfdarlarının yığıncağı olan Kirs dağındakı qalanın üç verstliyinə çatdı.
Qarabağ əhli, qoşunu və mərhum ağanı gördükdən sonra hamı dəstə-dəstə onun xidmətinə gəlib
əlini öpdülər. (Məhəmməd bəyin) topladığı ellər, yerləşdirildikləri meşə və çöllərdə
qalmışdılar. (Məhəmmədhəsən ağa) adam göndərib Məhəmməd bəyi öz yanına çağırdı. Əvvəlcə
Məhəmməd bəy qorxuya düşdü, lakin sonra xatircəm olub, Məhəmmədhəsən ağanın hüzuruna gəldi.
mərhum Məhəmmədhəsən ağanın əlini öpüb, xatircəmliklə onun yanında qaldı. (Məhəmmədhəsən

1.Mirzə Adıgözəl bəyin yazdığına görə şahın kəsilmiş başını Balakənə qarabağlı Məhəmməd Rəfi bəy aparmışdır (bax: Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, səh. 90).

2 Mirzə Adıgözəl bəy yazır ki, Ibrahim xan, şahın başını bir sovqat kimi Gürcüstan valisinə göndərdi (b a x: yenə
orada).

ağa) Məhəmməd bəyin istiqlaliyyəti zamanında qarışıqlığa bais olan bir neçə cinayətkarı
Məhəmməd bəyin gözü qabağında məs'uliyyətə cəlb edib, cəzalandırmağı əmr etdi.
Qalanın içərisində olan Mehdiqulu xan mərhum ağanın gəldiyini və qoşunla qalanın yanından keçib getdiyini eşitdikdə, əmisi oğlu oğlu Məhəmməd bəyin adamlarını tutub həbs
etdirdi. Məhəmmədhəsən ağa Qarabağ ellərini xatircəm edərək, bütün mahallara hökmlər yazdı,
hamıya öz işi və kasıbçılığı ilə məşğul olmağı əmr etdi. Nəhayət, Ibrahim xan qoşun əhli,
yaxın adamları, Nəsir xan və Əta xan Şahsevənlə Qarabağa kəldi.

Yeddinci fəsil

AĞA MƏḤƏMMƏD ŞAḤ ÖLDÜRÜLDÜKDƏN VƏ IBRAḤIM XAN BALAKƏNDƏN QARABAĞA QAYITDIQDAN SONRA BAŞ VERMIŞ ḤADISƏLƏR ḤAQQINDA

Mərhum (Ibrahim) xan Qarabağa gəlib, hökumət taxtında oturduğu zaman vilayətin əhalisi

qəhətlik və məşəqqət nəticəsində var-yoxdan çıxıb olduqca pərişan idilər. Ellərin çoxu
Gürcüstan, Gəncə, Iravan, Şirvan və hətta Rum vilayətlərinə dağılıb getmiş, mal-dövlətləri
qarət olunmuşdu. Ətrafdakı xanlar üzdə itaətdən, dostluqdan dəm vururdularsa da, gizlində öz
xeyirlərinə çalışırdılar. Belə xanlardan biri də şirvanlı Mustafa xan idi. Ibrahim xan Balakəndə olan zaman Mustafa xan, Ibrahim xanın kürəkəni Səlim xan Şəki hakimiyyətini ələ
alıb, onun dövlətinə zərər yetirməsin .deyə, Səlim xanın böyük qardaşını Şəkiyə hakim tə'yin
etdi.
Məhəmməd bəy mərhum Məhəmmədhəsən ağa tərəfindən xatircəm edildikdən sonra başqa
xanların övladı kimi mərhum Pənah xan sülaləsi arasında heç bir qorxu hiss etmədən
yaşayırdı. Buna baxmayaraq, cavanlığı üzündən və dövlətinə məğrur olduqundan Kür qırağına
gedib, şəkili Məhəmmədhəsən xanla dostluq etməyə başladı. Məhəmmədhəsən xan onu aldadıb
dedi:
«Mən bir kor kişiyəm, Mustafa xanın hökmündən cana gəlmişəm. Gəl, qızımı sənə verim,
mənim yanımda qal; Şəki vilayətinin hökumətini öz əlinə al».
Məhəmməd bəy bu sözlərə aldanıb öz adlı-sanlı qohumundan, möhtərəm əmisindən əl çəkərək
Məhəmmədhəsən xanın yanına getdi. Məhəmmədhəsən xan isə onu gəlcək tutub həbs etdi; yanında
olan bütün cavahiratına, puluna və başqa şeylərinə sahib oldu. Mustafa xan qədimdən
Məhəmməd bəylə qanlı idi, çünki atasının əvəzinə onun atasını və qardaşını öldürmüşdü.
Mustafa xan Məhəmmədhəsən xanın yanına adam göndərib Məhəmməd bəyi öz yanına gətirərək
öldürdü.
Beləliklə, (Mustafa xan) mərhum Ibrahim xanın qardaşı oğlunu öldürdüyündən qorxu çəkərək, yenidən Qarabağla düşmənçiliyə başladı. Digər tərəfdən Məhəmmədhəsən xan və Gəncə
hakimi Cavad xan da Qarabağla düşmən oldular.
Bu zaman xəbər çatdı ki, Ağa Məhəmməd şah tərəfindən Şiraza və Fars vilayətinə hakim
tə'yin edilmiş Sərdar Baba xan adlanan Fətəli şah, şahın qətli xəbərini eşitmək Tehrana
gəlmiş və padşahın malına, xəzinəsinə sahib olub, şahlıq taxtında əyləşmişdir. Bu tərəfdən Şuşa qalasından qaçmış Sadıq xan Şəqaqi, Azərbaycanı başsız görüb, səltənət
iddiasına düşmüşdü. O, başına çoxlu adam toplayıb, Tehranı almaq və girov aparılan ailələrini geri qaytarmaq əzmilə Iraqa tərəf hərəkət etdi. Lakin Fətəli şah, Sadıq xanın

qarşısına çıxıb, onu məğlub edərək qaçırtdı. Sonra böyük hörmətlə mərhum Ibrahim xanın
yanına elçi göndərib, Ağa Məhəmməd şahın cəsədini tələb etdi və Ibrahim xanın ona tabe
olmasını arzu etdiyini bildirdi.
Qarabağ vilayətinin vəziyyəti olduqca çətin olduğundan ətrafı isə düşmən və bədxahlar
bürüdüyündən.Ibrahim xan mülayimlik etməyi məsləhət bilərək, Ağa Məhəmməd şahın
cənazəsini böyük ehtiramla Tehrana göndərdi.
Fətəli şah Ibrahim xanın belə hərəkətini özü üçün xoşbaxtlıq sanıb, onun adamlarını xələt və ən'amla geri qaytardı. Ona xələt, qılınc göndərib. Qaradağın hökumətini bütün
mədaxili ilə Ibrahim xana bağışladı və onunla qohum olmaq istədiyini bildirib dedi: «hər
iki tərəfin xatircəmliyi üçün əziz və möhtərəm qızınız Ağabəyim ağanı bizim hərəmxanəyə
layiq bilməlisiniz. O bizim hərəmxanamızın xanımı olmalıdır». (Xan) müşavirədən sonra bu
işi məsləhət bildi.
O tərəfdən şah böyük tədarük görüb, yüksək xanları (Ibrahim xanın) yanına göndərdi. Böyük
hörmət və izzətlə Ağabəyim ağanın kəbinini kəsdirdi; onu qadınlarının möhtərəmi və hərəmbaşısı etdi. Ibrahim xanın oğlu Əbülfət ağanı öz yanına apartdırıb, yüksək xanlar
sırasında, öz məclisində oturtdu. Onun xatirini həmişə əziz və möhtərəm tutardı. hər il
Fətəli şahın adından mərhum Ibrahim xana və mərhum Məhəmmədhəsən xana xələt, qılınc,
qızıl yəhər, əsbablı at və başqa bəxşişlər göndərilərdi. Bu vəziyyət yüksək Rusiya dövlətinin
böyük imperatorunun sərdarı qoşunla Gürcüstan vilayətinə gələrək, müstəqill halda Tiflis
şəhərində yerləşdiyi günə qədər davam edirdi.
Rusiya dövlətinin başçıları Iravan, Gəncə, Şirvan və Qarabağ vilayətlərini zəbt etmək fikrində olmadıqları zamanda belə, mərhəmətli padşah mərhum Yekaterina vaxtından
başlayaraq, qüdrətli Rusiya dövlətinin məhəbbəti Ibrahim xanın ürəyində yerləşmiş və ona
qiyabi olaraq səmimiyyət və rəğbət bəslərdi. Bu səmimiyyət xüsusilə general-anşef Zubovun
gəldiyi zaman daha da artdı. Ondan əvvəl belə Ibrahim xan Gürcüstan valisi ilə dost olduğun-
dan, bir-birinin mənafei və xeyrini gözlədiklərinə görə, xan valinin məsləhəti üzrə öz elçisini valinin elçisi ilə birlikdə Mazdok xəttində sərdar olan qraf Qudoviçin yanına göndərib, Rusiya dövlətinə qarşı olan itaət və səmimiyyətini bildirmişdi. Indi də (Ibrahim
xan)Tiflisə gəlmiş Rusiya dövləti sərdarının yanına elçi vasitəsilə məktub göndərib, özünün qədim səmimiyyətini təzələdi.

Sabiq Sərdar (Qudoviç) qayıtdıqdan sonra sərdarlıq vəzifəsinə general Kavalevski tə'yin
olundu. (Xan) yenidən Kavalevskinin yanına elçi ilə hədiyyələr göndərib, öz dostluğunu
bildirdi. həqiqətdə də general Kavalevski elçiləri böyük hörmətlə qarşılayıb, xüsusi sovqat
və töhfələr göndərərək, mərhum Ibrahim xanın haqqında olduqca mehribanlıq göstərdi.
Nəhayət, böyük sərdar knyaz Sisianov Gürcüstana kəldi[1]. Böyük knyaz qeyrətli və cəsur sərdar
olduğundan başqa sərdarların əksinə olaraq, Car və Tala ləzgilərinin bir para hərəkətlərinə
və Gəncə hakimi Cavad xanın intizamsızlığına dözə bilməyərək, Gürcüstan əhalisinin
rahatlığını tə'min etmək üçün Car və Tala ləzgilərini və Cavad xanı tənbeh etməyi lazım
bildi.
O, xristian tarixilə 1803-cü ilin axırlarında gəlib, Gəncə qalasını mühasirə etdi. Bir
aylıq mühasirə müddətində bir neçə dəfə adam göndərib, Cavad xanı böyük imperatorun itaətinə
və qalanı təhvil verməyə də'vət etdisə də[2] bir fayda vermədi. haman il, ramazan ayının
axırıncı gecəsi, orucluq bayramının axşamı hücum edərək qalanı aldı[3]. Cavad xan, oğlu
Hüseynqulu ağa ilə ümumi qırğında öldürüldü, bütün əhl-əyalı əsir oldu. Şəhər əhalisinin bir
parası qırıldı, yerdə qalanı isə nicat tapdı.
(Knyaz), mayor Lisaneviçi Gəncə qalasından mərhum Ibrahim xanın yanına göndərib, onu
mərhəmətli Rusiya padşahına itaət etməyə də'vət etdi. Mərhum Ibrahim xan cənab mayora xoş
cavablar verərək, onu böyük ehtiramla və hörmətlə yazılmış məktublarla yola saldı.
1804-cü ilin bahar zamanı Fətəli şahdan qorxusu olan Iravan hakimi Məhəmməd xan və
Fətəli şahdan qaçaraq Iranda yaşayan Naxçıvan hakimi Kəlbəli xan sərdar Sisianovun yanına
elçi göndərib kömək istədilər. (Onlar dedilər:) «Fətəli şah öz oğlu vəliəhdi Abbas mirzəni
Iravan üzərinə göndərmişdir. Əgər sərdar təşrif gətirib, bizə kömək etsə, biz Iravan
qalasını sərdara verib, yüksək Rusiya dövlətinə tabe olmağı qəbul edərik».
Ona görə sərdar Sisianov Iravana hərəkət etdi. Qızılbaş dövləti tərəfindən isə vəliəhd
naibüssəltənə Qızılbaş qoşunu ilə gəlib çatdı. Arada vuruşma başlandı. Qızılbaşlar
məğlub oldular[4].
Bu xəbər Fətəli şaha çatdıqda Iravanın Rusiya dövləti əlinə keçməməsi üçün özü knyaz
Sisianovun müharibəsinə gələrək, güclü qoşunla Iravana girdi. Bir tərəfdən Fətəli şah,
digər tərəfdən naibüssəltənənin qoşunu və başqa tərəfdən sərdarla bağladıqları əhdi pozub,

qalanı ona təslim etməyən Məhəmməd xan və Kəlbəli xan Rusiya qoşununu dörd tərəfdən halqaya
alıb, hətta Rusiya qoşununun azuqə yollarını da kəsdilər[5]. Bu qədər zəhmətə baxmayaraq, Rusiya
qoşununa qalib gələ bilmədilər. Hər iki tərəfə çoxlu ziyan dəydi. Nəhayət, sərdar Sisianov

1 Knyaz Sisianov Gürçüstana 1803-cü ilin fevral ayında gəlmişdir (b a x: AKAK, Ş çild, sənəd 1, səh. 4)

2 B a x: «Knyaz Sisianovun Cavad xana yazdığı 1803-cü il 29 noyabr və 9, 11, 26, 28, 29 dekabr tarixli məktublar»
(AKAK, II cild, sənəd 1172, 1175—1179, səh. 588, 590—591).

3 Gəncə qalası 1804-cü il yanvar ayının 3-də səhər açılan zaman alınmışdır. B a x: «Knyaz Sisianovun Qafqaz mülki
qubernatoruna yazdığı 1804-çü il 8 yanvar tarixli, 5 nömrəli tə'liqə_____» (AKAK, II çild, sənəd 1182, səh. 592).

4 Müharibə 1804-cu il iyun ayının 19 və 20-də, Üçkilisə (Eçmiədzin) yaxınlığında olmuşdur. Bu vuruşmada
Sisianovun qoşunu Babaxan oğlunun sərgərdəliyi altında olan Iran qoşunlarının hücumunu dəf etdi. B a x: «Knyaz
Sisianovun Iravan hakimi Məhəmməd xana yazdığı 1804-cü il 22 iyun tarixli 316 nömrəli məktub» (AKAK, II çild,
sənəd 1231, səh. 615).

5 Bu hadisə 1804-cü il iyul ayının 2-də Rusiya qoşunları Iravan qalasını mühasirə etdikdən sonra baş vermişdir
(AKAK, II cild, sənəd 1168, səh. 810). müqayisə et: Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, səh. 104.

Tiflisə qayıtmağı məsləhət bilib köçüb getdi. Fətəli şah da Azərbaycana və (oradan da)
Tehrana getdi.

Şah, mərhum Ibrahim xanla Rusiya sərdarı arasında dostluq əlaqəsinin olmasını və elçilərin gedib-gəlişini eşitdiyinə görə, Iravandan qayıtdığı zaman Əbülfət xana beş min
nəfərlik qoşun verib, atasına yardım və kömək göstərmək adı ilə Qarabağa, Ibrahim xanın
yanına göndərdi və tapşırdı ki, Məhəmmədhəsən ağanı bir neçə Qarabağ bəyzadələri ilə Fətəli
şahın hüzuruna göndərsin. Əbülfət xan Ibrahim xanın həyatının axırına qədər vəkil sifətilə Qarabağda qalsın və Əbülfət xandan icazəsiz və məsləhətsiz heç bir iş görülməsin.

Mərhum Ibrahim xan Fətəli şahın belə təkliflərindən inciyib, Əbülfət xana ağır cavablar verərək, yazdı ki, Qarabağ torpağına girmədən geri qayıtsın. Əbülfət xan möhtərəm
atasının sözünə baxmayıb, Ibrahim xan və Məhəmmədhəsən ağa Dizaq mahalının Tuq kəndində
olduqlarından, Qızılbaş qoşununu götürüb, o tərəfdəki dağların qoçaq tüfənglilərini, özünün işgüzar nökərlərini və başqalarını toplayıb, tam bir sür'ət və böyük izdihamla mərhum
Ibrahim xanın və öz böyük qardaşı mərhum Məhəmmədhəsən ağanın hüzuruna gəldi. haman gecə
Mehdiqulu xan da gəlib çatdı.

Səhər Əbülfət xan böyük dəstə ilə Tuq kəndinə hücum etdi. Mərhum xanın və oğlanlarının
yanında olan qoçaq tüfənglilər və adlı-sanlı atlılar hücuma keçərək, Qızılbaş qoşununu

məğlub edib, (düşmən) ordusunun bütün at və heyvanını qarət etdilər. (Düşməndən_____) çoxlu əsir
düşən və ölən oldu. Əbülfət xan Arazın o tayına qaçdı.
Fətəli şah bu xəbəri eşitdikdə, Ibrahim xanın Qızılbaş dövlətindən bütünlüklə əl çəkməməsi və Rusiya dövlətinə meyl göstərməməsi üçün yumşaq hərəkət edərək, iki-üç nəfər xanı
elçi adı ilə Ibrahim xanın yanına göndərdi, Əbülfət xanı isə danlayıb, məzəmmət etdi.
Kərim xan, Rəhim xan və Abdulla xandan ibarət olan bu elçiləri mülayim və şəfqətli sözlər,
möhkəm təəhhüdlər və qəliz andlarla dolu fərmanilə Ibrahim xanın yanına göndərib söz verdi
ki, bütün Qarabağ mahalını, şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq
mərhum Ibrahim xan nəslinə verəcəkdir; övladlarından iki nəfərini də Şuşa qalasına, Ibrahim xanın yanına girov göndərəcəkdir. Müqabilində Ibrahim xan Şuşa qalasının üç
ağaclığında, Tiflis və Gəncə yolunun üstündə olan Əsgəranın hər iki qalasını (Qızılbaş)
qoşununa təhvil verməlidir. Rus qoşununun qabağını kəsmək üçün hər iki qala möhkəmləndi-
rilib, içərisində qoşun saxlanmalıdır. habelə qalanın bir ağaclığında olan çay, Şuşa qalasının üç verstliyindəki səngərlə birlikdə Qızılbaş qoşununun ixtiyarına veril-
məlidir. Beləliklə, hər iki çay, keçidlər və qalanın yolları Qızılbaş qoşununun əlində olmalıdır. Rusiya dövlətinin qoşunu Şuşa qalasına gəlmək istədikdə onun qabağını almaq
üçün buralarda möhkəm səngərlər qurulmalıdır. Bir nəfər sərdar iki-üç min atlı ilə Şahbulağında oturmalı, Tiflis və Yelizavetpol tərəflərinin işindən xəbər tutmalı və oralarda qətl-qarət etməlidir. heç bir kimsə Ibrahim xanın itaət və əmrindən boyun qaçırmamalıdır. Qızılbaş qoşununun bütün məxariçi Fətəli şahın xəzinəsindən veriləcəkdir. Kimsə Qarabağ vilayətinin zərrə qədər şeyinə belə tamah gözü ilə baxmayacaqdır,
Qoşuna lazım olan sürsat və başqa şeylər pulla satın alınmalıdır. Bunlardan məqsəd odur ki,
allahın əlilə yaradılmış, Gürcüstanın və Şirvanın qapısı olan möhkəm Şuşa qalası Rusiya dövləti qoşununun əlinə keçməsin.
Mərhum Ibrahim xanın qızı Ağabəyim ağa Fətəli şahın baş hərəmi, oğlu Əbülfət xan isə
əmirəlüməra və hörmət sahibi olduqlarına baxmayaraq o, yüksək Rusiya dövlətini əbədi, böyük
imperatorun ədalət və mərhəmətini daimi sanıb, imperatorun mərhəmətinin dəyişilməz
olduğuna inamı var idi. (Buna görə də) Iran dövlətinə və onun mərhəmətinə məhəl qoymayıb,
yenidən Tiflis şəhərinə elçi göndərdi. Sərdar Sisianovla görüşmək və itaət şərtlərini qurtarmaq istədiyini bildirdi.
Sərdar knyaz Sisianov Ibrahim xanın elçisini hörmət və ən'amla geri qaytarıb, xəbər vermişdi ki, görüş yazda vilayətin yaxınlığında olacaqdır.
Buna görə 1805-ci il may ayının birində mərhum Ibrahim xan, oğlanları general-
mayor

Məhəmmədhəsən ağa, general-mayor Mehdiqulu ağa, polkovnik Xanlar ağa və Qarabağın başqa
ə'yanı ilə birlikdə böyük sərdar knyaz Sisianovun yanına getdi[1]. (Knyaz) onlardan qabaq gəlib,
Kürəkçay kənarında ordu qurmuşdu. Ibrahim xan e'timadlı adam göndərib, kürəkəni olan Şəki
vilayətinin hakimi Səlim xanı da raya gəlməyə təşviq etdi və onu Şəki vilayətinin ə'yanı 10
böyük sərdarın hüzuruna apardı.

[1] Bax: «Knyaz Sisianovun knyaz Çartoriyskiyə yazdığı 1805-ci il 9 may tarixli 298 nömrəli məktub» (AKAK, II çild,
sənəd 1435, səh. 702). Müqayisə et. Knyaz Sisianovun, general-mayor Portnyaginə göndərdiyi 1805-çi il 23 may tarixli,
605 nömrəli tə'liqə (AKAK, II çild, sənəd 1438, səh. 707). Bax: Mirz Adıgözəl bəy. Göstərilən əsəri, səh. 108.

Kürəkçayın qırağında bir neçə gün bayram, şənlik və qonaqlıq oldu. Sonra, traktat və
əhdnamə yazıldı. Ibrahim xan və Şəki hakimi Səlim xan ona möhür basdılar, böyük sərdar isə
ona qol çəkdi[1]. Bir-birinə böyük hörmət və ehtiram göstərdikdən sonra geri qayıtdılar. Şərtə
görə Məhəmmədhəsən ağanın ikinci oğlu Tiflisdə girov qalmalı oldu. Mərhum Ibrahim xanın
xahişinə görə bir dəstə rus qoşunu topxana ilə həmişə Şuşa qalasında xanın yanında
qalmalı idi. Ьaman yığıncaqda Ibrahim xana və Səlim xana general-leytenantlıq, mərhum
Məhəmmədhəsən ağaya və Mehdiqulu xana general-mayorluq, mərhum Xanlar ağaya isə
polkovniklik rütbələri verilməsi haqqında sərdarın vasitəçiliyi ilə padşaha ərizə yazıldı.

Dörd aydan sonra bu iltifat və daimi məvacibli dərəcələrin verilməsi haqqında fərman gəlib
çatdı.

Kürəkçay yığıncağından qayıtdıqdan sonra, mayor Lisaneviç sərdarın əmri ilə bir dəstə
yeger və topxana ilə qalanın 10 verstliyində olan Xanbağına gəldi. Bu zaman, Qızılbaş
qoşununun Araz qırağına yaxınlaşması xəbəri gəlib çatdı. Arazın suyu qalxmışdı. Çayı
körpüdən başqa heç yerdə keçmək olmazdı. Buna görə Məhəmmədhəsən ağa Qızılbaş qoşununun
Qarabağ torpağına girə bilməməsi və vilayətdəki ellərin, kəndlərin əkin yerlərinin tələf
olmaması üçün yeger dəstəsini və mayoru götürüb, Qarabağın adlı-sanlı atlıları ilə birlikdə
körpüyə tərəf ketdi. Lakin Qızılbaş (qoşunu) onları qabaqlayıb körpüdən keçmiş və Qarabağ
torpağına girmişdi. Qızılbaşlar Cəbrayıllı bağları yaxınlığında rus və Qarabağ
əskərlərinə rast gəldilər. Bərk vuruşma oldu. Gecə mərhum Məhəmmədhəsən ağa Şuşa

qalasının mühafizəsini məsləhət bilib, qoşunla qalaya qayıtdı. Qızılbaş qoşunu qalanın
dörd ağaclığında olan Ağoğlana girdi. Beş minə yaxın qoşun isə Əskəran qalası ətrafına
gəlib, iki tərəfdən qalanı almaq fikrində idilər.
Mayor bu əhvalatı sərdara yazmışdı. Bu arada Iranın naibüssəltənəsi Çanaxçı kəndinə
gəlib, Əskəran qoşununun yolunu gözləyirdi.
Polkovnik Karyagin və podpolkovnik Kotlyarevski böyük sərdarın əmrinə görə qoşun və
topxana ilə Şahbulağı qalasının yaxınlığına çatdılar. Naibüssəltənə Çanaxçıdan köçüb,
polkovnik Karyaginin üstünə getdi. Bunlar vuruşa-vuruşa Əskəranın yaxınlığına çatdılar.
Qızılbaş qoşunu hər yeri, bütün yolları və Əskəran qalasını tutub möhkəmləndirdiyinə görə
qoşunun və topların hərəkəti çətinliyə düşdü. Buna görə bir dəstə rus qoşunu orada səngərə-
girib, on bir gün ərzində, gecə-kündüz bütün Qızılbaş qoşunu ilə vuruşdu. Bundan başqa rus
qoşununun səngəri sudan da uzaq idi. On bir gündən sonra polkovnikin və Kotlyarevskinin
yaralandığına və rus qoşununun yarısının davada tələf olduğuna və yaralandığına baxmayaraq,
üç yüzə yaxın saldat bütün topları götürüb, Vanya yüzbaşının bələdçiliyi ilə Şahbulağına
qayıtdılar. O müharibədə böyük xidmətlər göstərmiş Vanya yüzbaşı indi Məlik Vanyadır.
Rus qoşununun qalaya girə bilməməsi üçün Şahbulağında çoxlu Qızılbaş piyadası
qoyulmuşdu. Buna baxmayaraq, (ruslar) həmin gecə hücum edərək qalanı Qızılbaşların əlindən
aldılar. Bir nəfər Qızılbaş xanı neçə nəfər piyada ilə birlikdə öldürüldü. (Ruslar) üç gün
orda qaldıqdan sonra yenə Məlik Vanyanın bələdçiliyilə Gəncəyə ketdilər.
Fətəli şah özü də bütün Qızılbaş qoşunu ilə Qarabağa gəlib, Şuşa qalasının altı
ağaclığında ordu qurmuşdu. Naibüssəltənə Abbas mirzə də polkovnik Karyagin Gəncəyə get-
dikdən sonra Şahbulağının yaxınlığında ordu qurmuşdu. Bu zaman böyük sərdar Sisianov
naibüssəltənə və Fətəli şahı məğlub etmək üçün rus qoşunu ilə Qarabağ torpağına daxil oldu.
Naibüssəltənə Gürcüstanı viran və qarət etmək niyyətilə öz ixtiyarında olan qoşunla
Qarabağdan köçərək Tiflisə tərəf getdi. Fətəli şah Ağoğlanda qalmışdı.
Bu zaman, Rəştdən Fətəli şaha xəbər çatdı ki, rus qoşunu Xəzər dənizi yolu ilə Talış və
Rəşt vilayətinə çıxmışdır. Şah bu xəbərə və sərdar Sisianovun gəldiyinə görə köçüb
Ərdəbilə tərəf ketdi.
Sərdar Sisianov Ağoğlanın iki ağaclığında olan Xonaşenə qədər irəlilədi. Burada şahın

köçüb getdiyini eşitdikdə Şuşa qalasına gəldi. Burada bir para işlərə baş çəkib, yuxarıda
adı çəkilən şərt və təəhhüdlərlə Ibrahim xanıı yanına elçi sifətilə gəlmiş üç nəfər Qızılbaş xanını özü ilə götürərək, böyük hörmət və razılıqla Tiflisə getdi. Һaman ilin qış
fəslində (knyaz) böyük Rusiya dövlətinin qoşunu ilə Kürdən keçib, Şirvan, Bakı, Quba və
Dərbəndi tutmaq üçün Şəkiyə tərəf hərəkət etdi.
Böyük Rusiya dövlətinə səmimiyyət bəsləyən Ibrahim xan öz istəkli oğlu Mehdiqulu ağanı
Qarabağ qoşunu və bir neçə bəyzadə ilə birlikdə padşah əsgərləri sırasında tapşırılan
vəzifələri yerinə yetirmək üçün sərdarın hüzuruna göndərdi.
1 Ibrahim xanın Rusiya təbəəliyinə keçməsi haqqındakı traktat 1805-ci il may ayının 14-də, Səlim xanın isə Rusiya
ilə bağladığı traktat həmin il may ayının 21-də imzalanmışdır (AKAK, II cild, sənəd 1436, 1437, səh. 705).
Böyük (Rusiya) dövləti itaəti altında olan Şəki hakimi Səlim xan sərdarı lazım olan tədarükat və layiqli peşkəşlərlə Şəki vilayəti sərhəddindən ötürüb Şirvan vilayəti sərhəddinə çatdırdı.
Öz dövlətinə, gücünə və ölkənin çətin yollarına qürrələnən Mustafa xan bir neçə gün sərdara qürurla cavablar yazaraq, itaətdən boyun qaçırdı. Lakin qüdrətli rus əsgərləri, Qarabağ
və Şəki qoşunu qarşısında müqavimət göstərə bilməyəcəyini və Qarabağ qoşununun fürsət
tapıb Şirvan kəndlərinə əl uzatdığını gördükdə o, Mehdiqulu xanla Səlim xanın göstərişi
ilə itaət edəcəyinə yalandan söz verdi, Ibrahim xan və Səlim xan kimi müqavilə və əhdnamə ya-
zıb, üzdə Rusiya dövlətinin itaəti altına girdi1.
Böyük sərdar Şirvandan keçib Bakı tərəfə hərəkət etdi. Bu zaman mərhum Ibrahim xanın
xəstə olan böyük oğlu general-mayor Məhəmmədhəsən ağa allah rəhmətinə getdi. Bu kədər gətirən
hadisədən Qarabağ vilayətini qəm və pərişanlıq basdı. Ürəkdə rus dövlətinə itaət etməyə razı
olmayan bir para adamlar Məhəmmədhəsən ağanın vəfatından, Mehdiqulu ağanın vilayətdən
uzaqlaşmasından, mərhum Ibrahim xanın xəstəliyi, yaşının çoxluğu və qüvvəsinin azlığından
istifadə edərək, müqavilə və əhdnamənin əksinə olan işlər görməyə başladılar. Buna görə
böyük sərdar Mehdiqulu xanı Qarabağ qoşunu ilə birlikdə geri göndərməyi məsləhət bilərək,
onu böyük ehtiram, izzət, layiqli ən'am və xoş xəbərlər ümidi ilə Qarabağa qaytardı. Mərhum
general-mayor Məhəmmədhəsən ağaya xüsusi səmimiyyəti və məhəbbəti olduğundan hörmətli cənab
polkovnik Cəfərqulu ağaya sevgi və ehtiramını andıran məktub yazıb, mərhum Məhəmmədhəsən

ağanın vəfatından son dərəcə təəssüfləndiyini, ona məhəbbət bəsləyib, qeydinə qalmağa hazır
olduğunu bildirdi.
General-mayor Mehdiqulu xan Qarabağ qoşunu və bəyzadələri ilə möhtərəm atasının
hüzuruna gəlib, böyük sərdarın məhəbbətli və ümidverici sözlərini söylədi. Fəsadlıq törədən
bə'zi şəxslərin qarşısını almağa başlayıb, yüksək (rus) dövlətinin qanunlarının yerinə yetirilməsi uğrunda çalışırdı.
Bu zaman xəbər çatdı ki, Ḥüseynqulu xan və onun adamlarından alçaq, və pis hərəkətin baş
verə biləcəyini güman etməyən böyük sərdar, Bakı vilayətində iki nəfər bəyzadə ilə birlikdə
(xanla) söhbət etməyə getmiş və bu zaman pusquda oturmuş Ibrahim bəy və iki nəfər başqa adam
onu və yoldaşlarını güllə ilə yaralayıb öldürmüş və bununla da özlərinin padşahın əsgərlərinə müxalif və düşmən olduqlarını bildirmişlər.
Bu xəbərdən Ibrahim xan, övladı və vilayət əhli kədərlənib pərişan oldular. Çünki bunlar
hələ Rusiya dövlətinin qayda-qanunlarından xəbərdar deyildilər. Fikirləri Irana gedirdi.
Çünki orada belə bir böyük sərdar vəfat etsə idi, qoşunun və vilayətin işlərində böyük
pozğunluq əmələ gələrdi. Əksinə, düşmənlə müharibədə rus dövlətinin bir neçə sərdarı və
sərkərdəsi öldürülsə belə, ondan yuksək dövlətin möhkəm qanun-qaydalarına heç bir xələl dəyməz
və ölkədə heç bir iğtişaş baş verməz.
Sərdar Sisianov vəfat etdikdən sonra general Nesvetayev Tiflis şəhərində qoşunu və vilayəti idarə etməyə məşğul oldu. Mərhum Ibrahim xanın adamı (elçisi) məhəbbət və
səmimiyyət andıran məktublarla generalın yanına getdi. hər cəhətdən xatircəmlik əldə edildi.
Ḥəmin il yə'ni 1806-cı ilin yaz fəslində Qızılbaş qoşunu Qarabağ torpağına yenidən hücuma keçməyə başladı. Gizlincə adamlar göndərib, mərhum Ibrahim xana yenidən və'də və
ümidlər verməyə davam etdilər.
Elə qüdrətli düşmənin qabağını almaq üçün Qarabağda mayor Lisaneviç və yeger dəstəsindən
başqa qoşun olmadığından və məhsul vaxtı gəlib çatdığından Ibrahim xan, Qarabağ elləri və
kəndlərinin ayaq altında dağılmaması üçün qızılbaşlarla xoşluqla rəftar etməyə başladı. O
hər bir iş barəsində mayorla məsləhətləşirdi. Mayor isə yüksək Rus dövləti qoşununun
tezliklə gəlib çatacağını Ibrahim xana və'd edirdi.
Ḥəqiqətdə isə (rus) qoşunu çox yubandı. Qızılbaşlar _____və onların qoşunu qalanın iki
ağaclığına çatmışdı. Mərhum Ibrahim xan evini və köçünü Xan bağından köçürüb, qalanın

yaxınlığına gətirdi. Dələ-duzlardan bir neçəsi mayora nə isə demişdilər. Gecə mayor bir
dəstə qoşunla Ibrahim. xanın yaşadığı mənzilə getdi. hökmü dəyişilməz olan fələkin qəzasından mərhum Ibrahim xan bir neçə nəfər əhl-əyalı və yaxın adamı ilə orada öldürüldü[2].

[1] Mustafa xanın Rusiya təbəəliyinə keçməsi haqqında traktat 1805-ci il dekabr ayının 25-də imzalanmışdır. B a x:
«Knyaz Sisianovun çara göndərdiyi 1805-ci il 27 dekabr tarixli, 51 .nömrəli raport» (AKAK, II cild, sənəd 1366, səh.
674).

[2] Müəllifin oğlu Rizaqulu bu hadisəni daha geniş təsvir edərək yazır ki, o kecə on yeddi adam, o cümlədən Ibrahim
xan, arvadı Tuba xanım, qızı Səltənət bəyim, on iki yaşlı oğlu Kəbirli Abbasqulu ağa, Һacı Һacan, Əli bəy, Mirzə
Һaqverdi, qərvəndli Һümmət bəy, sarıcalı Külməli bəyin oğulları Cavanşir və Һəsən ağa, nökərlərdən qərvəndli
Əlipənah, əfşarlı Cavanşir və Mirzə Nəqi, kəbirli Əcəməlinin oğlu Һacı Һəsən iki oğlu ilə, iki nəfər şelli və iki başqa adam öldürülmüşdür (bax: Mirzə Rizaqulu Camal bəy oğlu Azərbaycan SSR əlyazmaları fondu, inv. №B 470)

General-mayor Mehdiqulu xan və polkovnik Cəfərqulu ağa qalanın içində idilər. Onlardan
yüksək (rus) dövlətinə bəslədikləri səmimiyyət qaydalarını poza biləcək heç bir hərəkət baş
vermədi. Əksinə qorxuya düşmüş xalqı sakitləşdirməyə çalışır, heç bir işdə cənab mayorun
ziddinə getmirdi. Taxıl və ərzağın qıtlığına baxmayaraq, qoşun, üçün azuqə tədarük etməyə
çalışırdılar. Qızılbaş qoşunu naibüssəltənə Abbas mirzə ilə Ağoğlanda yerləşmişdi.
Mərhum Ibrahim xanın başına gələn kədərli hadisədən on beş gün keçməmiş general
Nebalsin qoşun və topxana ilə Şahbulağında göründü. Mehdiqulu xan qoşunun gəldiyini
eşitcək Qarabağın adlı-sanlı atlıları, xidmətçiləri və bir neçə bəyzadə ilə, Qızılbaş qoşununun ətrafı və yolları tutduğuna baxmayaraq, qaladan çıxıb, general Nebalsinin
xidmətinə gələrək, rus qoşununa qovuşdu. Qoşun, Əskəran qalası yaxınlığında ordu qurdu.
Polkovnik Cəfərqulu ağa, mayor və yeger dəstəsi ilə qalanı qorumaq üçün (Şuşa) qalasında
qalmışdılar.
General Nebalsin, Iranın naibüssəltənəsinin Qızılbaş qoşunu ilə hücuma keçəcəyini ehtimal edərək iki gün gözlədi. Lakin bir əsər görünmədi. Buna görə belə məsləhət bildilər ki,
Qızılbaş qoşununa tərəf getsinlər. Əgər onlar vuruşmaq istəsələr vuruşsunlar. Əks təqdirdə üzərlərinə hücum edib, onları Qarabağ torpağından qovub çıxartsınlar.
Naibüsəltənə, rus qoşununun ona tərəf hərəkət etdiyini eşitdikdə bütün qoşunu ilə köçüb,
müharibəyə gəldi. Xonaşen mənzilinin yaxınlığında iki qoşun üz-üzə gəldi. Müharibə odu
alovlandı. Mehdiqulu xan, adamları və Qarabağ qoşunu ilə daim yol göstərir, kömək edir, döyüş
zamanı isə Qızılbaş qoşununu məğlub etmək uğrunda bilavasitə çalışırdı.

Iyul ayının 15-də Xonaşen mənzilində yeddi saat davam edən döyüşdən sonra generalın
tədbiri, Katlyarevskinin mərdliyi və Mehdiqulu xanın köməyi ilə Qızılbaş qoşunu məğlub
edildi. Qoşunun bir parası öldürüldü, bir parası, əsir düşdü, (qalanları isə) Araza tərəf
qaçdı. Katlyarevski də yaralandı. Otuz nəfərə yaxın zabit və əsgər yaralandı və
öldürüldü.
General qoşun götürüb (düşmənin) ardınca Qozlu çaya qədər getdi, lakin onlardan əsər
tapmadı. Naibüssəltənə ağır yükünü atıb qaçaraq, iki günün ərzində Qızılbaş qoşunu ilə
Arazın o tayına keçdi.
Əbülfət xan, Qarabağın başqa qaçqın xan və bəyləri bütün elləri və neçə para kəndi
köçürüb, Naxçıvan və Ordubad tərəfə aparırdılar. Qızılbaş qoşununun məğlub olması
xəbəri
gəlib çatdıqda, polkovnik Cəfərqulu ağa, cənab mayor Lisaneviç ilə birlikdə adamlarını və
ellərin məşhur atlılarını götürüb, Qarabağ camaatını geri qaytarmaq və Qızılbaş
qoşununu
dağıtmaq üçün Zəngəzur mahalı yolu ilə hərəkət etdi.
Onlar, var qüvvələri ilə gecə-gündüz dayanmadan getdilər. Əsgərlər üçün dağlarda yol
getmək çətin olduğuna baxmayaraq, onlar da arxadan gəlib çatırdılar. Nəhayət, Qarabağ at-
lıları, polkovnik Cəfərqulu ağanın başçılığı ilə Qapan və Ordubad dağlarında Qızılbaş
qoşununa çataraq, döyüşə başladılar. Dar dərələrdə, iki minə yaxın Qızılbaş süvari və
piyadasını məğlub edərək, hamısını tutub soyundurdular, atlarını, şeylərini, paltarlarını
aldılar. Əsgərlər arxadan gəlib çatdıqda bütün Qızılbaş qoşununun bir parasını əsir,
qalanını isə qaçmış gördülər. Sürülüb aparılmaqda olan Qarabağ el və camaatını qalanın
yaxınlığındakı dağlara qaytardılar.
O zaman naibüssəltənə Araz qırağı tərəflərində idi.
Bir tərəfdən general Nebolsinin Mehdiqulu xanla birlikdə naibüssəltənəni məğlub
etmələri, digər tərəfdən də mayorla polkovnik Cəfərqulu ağanın belə şücaət göstərmələri
Qarabağ camaatını sakitləşdirdi və padşah əsgərlərinin gücünü nümayiş etdirdi. Hər kəs öz
yerində yerləşib, rahat və asudə yaşamağa başladı.
Hаman ilin qış fəslində general-anşef qraf Qudoviç böyük imperator mərhum Aleksandr
Pavloviç tərəfindən sərdarlıq vəzifəsinə tə'yin olunaraq Tiflisə gəldi. General-mayor
Nesvetayev Mehdiqulu xanın məktub və yazılarını öz ərizəsilə imperatorun hüzuruna
göndərdiyinə görə sərdar, onu öz hüzuruna, Tiflisə çağırtdırdı.
Mehdiqulu xan bütün kətxudalar və ellərin bəyləri ilə bərabər Tiflisə gələrək qrafla
görüşdü. O biri günü böyük yığıncaq oldu. Qarabağ hakimliyi fərmanı və əhdnamədə qeyd
edildiyi kimi, cavahirə tutulmuş qılınc və padşahlıq bayrağı və'dəsi Mehdiqulu xana

verildi. (Sərdar) onu müxtəlif mərhəmətlər göstərəcəyi mücdəsi və ümidi ilə Qarabağa yola
saldı.
Mehdiqulu xanın hakimiyyəti köstərilən tarixdən başlayaraq, 1822-ci ilin oktyabr ayına
qədər davam etmişdir. Bunun təfsilatı yüksək dövlətin kargüzarları tərəfindən dəftərdə qeyd
edildiyinə görə sizə mə'lumdur və mənim ərz -etməyimə ehtiyac yoxdur.
Fəsil
BU VILAYƏTLƏRIN KƏRAMƏTLI Ə'LAḤƏZRƏT IMPERATOR BƏNDƏLƏRININ ḤÖKMÜ VƏ MÜḤAFIZƏSI ALTINA KEÇƏN GÜNDƏN BAŞ VERMIŞ ḤADISƏLƏR ḤAQQINDA
Iran[1] dövlətinə düşmənçilik edilən zaman böyük zərərlər çəkilmələrinə baxmayaraq, Iran
dövlətinin kargüzarları ondan sonra da daimi olan Rusiya dövləti ilə bağladıqları əhdnaməni, dostluq və ittifaq şərtlərini 1826-cı ildə pozdular. Səfir sifətilə Irana getmiş nəcabətli knyaz Menşikovu geri qaytarıb, qəflətən, Rusiya dövlətinə aid olan vilayətlərə soxuldular. həqiqətdə isə onlar səhv edirdilər. Onlar, padşahın əsgərləri qarşısında tab gətirə bilməyəcəklərini, rus qoşunu dəryasının dalğaları tələtümə gəldiyi
zaman, çör-çöp kimi məhv olacaqlarını düşünməmişdilər.
Birinçi mərhələdə mərhum naibüssəltənə bütün qoşunu ilə Şuşa qalasının üstünə gəlib,
ay yarıma qədər oranı mühasirə etdi. General Reuttun qoşunu az olduğuna, azuqəsi, barıtı,
gülləsi və topu olmadığına baxmayaraq, o (naibüssəltənə), Şuşa qalasının divarlarına
yaxınlaşa bilmədi. Sərdar Əmir xanın, Şəmkürdə (Şamxorda) general knyaz Mədədovun
qoşunları tərəfindən məğlub edildiyini eşitdikdə, əlacsız qalıb, oradan köçdü və möhtərəm
knyaz, qraf Paskeviç-Erivanskinin hökmü altında olan qoşunla müharibə etmək əzmilə
Yelizavetpolun yaxınlığına qədər gəldi. Lakin bir saatdan artıq tab gətirməyib məğlub oldu.
Iki günün içərisində Arazı keçib Qaradağa ketdi. Böyük sərdar Çərəkən mənzilinə qədər onun
ardınca getdi, lakin bir nəfər belə Qızılbaş əsgəri tapmadı.Padşahın müzəffər qoşununun
gücü, həqiqətdə, bütün xalqlar arasında şöhrət tapıb, dillərdə söyləndiyinə baxmayaraq, böyük
və kəramətli imperatorun əsgərlərinin gücü xüsusilə haman 31-ci ildə, yüksək knyaz, möhtərəm
qraf Paskeviç-Erivanskinin bu vilayətlərdə sərdarlıq və salarlıq etdiyi zamanda Iran və Rum
dövlətləri əhalisinə göstərildi. O, böyük rus dövlətinə daxil olan vilayətlərin çaşqın və
pərişan qalmış əhalisini aram etdi. Böyük imperatorun mərhəmət dəryasından ümidini üzmüş,

ev-eşiklərindən əl çəkərək, qaçqın və pərakəndə qalmış şəxslər və bu vilayətlərdə ocaq sahibi
olan adamlar, günahları bağış-landığına görə öz vətənlərinə qayıtdılar. Imperatorun dərya
qədər olan mərhəməti qarşısında onların günahını zərrə qədər xırda sanıb, təqsirlərindən
keçdi, mərhəmət və əfv ilə ümidvar edib, öz yerlərinə qaytardı. Allaha şükür, bütün onlar və
başqaları öz mülklərinə sahib olaraq, rahatlıq və asayişlə ömr sürürlər. (Bu ne'mətə)
şükürlər edib, böyük dövlətin çağırışını gözləyirlər ki, onun əsgərləri ilə birlikdə qulluq
göstərib, canlarından keçsinlər. Çünki padşahın müzəffər qoşunu ilə birlikdə Iran, Rum və
Dağıstan müharibəsində iştirak edən Qarabağ camaatı mənsəb və məvacib sahibi olmuş, heç
biri bəhrəsiz qalmamışdır.

* * *

Müsəlman tarixi ilə 1205 (1790—91) -ci ildən 1260 (1844)-cı ilə qədər xanlar xidmətində
və Qarabağ vilayətində qulluq edib, kargüzar olmuşam və bir çox hadisə və müharibələrdə
iştirak etmişəm. Ümidvaram ki, bu yazdıqlarım knyaz namestnikin işıqlı nəzərinə çatacaq və
onun mənə qarşı lütfü və mərhəməti artacaqdır. Ümidvaram ki, belə böyük əmir və yüksək
canişin hər vaxt məni xoşhal etdiyi kimi, indi də mənə mərhəmət göstərər və mübarək
xatirindən çıxarmaz. həqiqətdə də o cənaba xeyirxah olub, xidmət etmək hər bir kəsə vacib və
lazımdır. O, bütün səmimi dostlarına və xidmətçilərinə lütf etmişdir.

Xeyrxahlardan həmişə razı olan yeganə allah onu daima xoşhal və xoştale etsin. Amin, ey
kömək edən (allah).

«Yaxşı ad qoyub getmək.
Qızıl saray qoyub getməkdən yaxşıdır».

SON SÖZ

Qarabağ vilayətinin torpağı, əyalətləri və mərhum Pənah xanın və Ibrahim xanın
hökmdarlığından bəhs edən bu bir neçə vərəqi kəramət və ehsan mənbəi olan rəhmli, böyük əmir,
yüksək imperatorun canişini qraf və knyaz Mixail Semyonoviç Voronsovun mübarək adına

1 Burada «Iran» səhv yazılmışdır, «Rusiya» olmalıdır.

yazdığım üçün onun nəcabəti və əzəməti haqqında Şuşa qalasında dediyim bu qit'əni də xeyir
dua olsun deyə buraya yazdım və sözümü bununla qurtardım.

QIT'Ə

Lütfdə mə'ruf olan adamın adına yazdım
Ьəm qrafdır, həm knyaz Voronsov,
Böyük xaqanın xidmətində
Bütün vaxtını sərf etmişdir.

Ümidlə qapısına galən hər kəsi
Lütflə geri qaytarmışdır.
Ilahi! Onun dövləti və baxtı artıq olsun.
O, dunyada həmişə şad və sevincək olsun.
* * *
Ьadisələrin yazılışı 1294 (1875)-cü ildə qurtardı[1].

Fəsil

(XANLARIN ЬAKIMIYYƏTI ЬAQQINDA)

Mərhum Pənah xanın Qarabağ vilayətində hökmranlıq müddəti Mərhum Nadir şahın qardaşı oğlu Adil şahdan xanlıq adı, hökumət fərmanı və hakimlik ləğəbi çatdıqdan sonra,
on iki il davam etmişdir. Mərhum Ibrahim xanın hökmranlığı isə qırx ildən artıq olmuşdur.
Mərhum Mehdiqulu xan böyük imperatorun fərmanı ilə Qarabağda on yeddi il. neçə ay hakim
olmuşdur.

Fəsil

MƏRЬUM PƏNAЬ XANIN QARABAĞDA TIKDIRDIYI BINA VƏ IMARƏTLƏR

Birinci—Bayat qalasıdır ki, orada bişmiş kərpicdən hasar, bazar, hamam və imarətlər tikdirmişdir. Indi xarabadır, yalnız xırda-para qalıqları görünür.
Ikinci—Şahbulağı qalasıdır. (Burada) bulaq başında daş və əhənglə məscid, hamam (tikilmiş), şəhər və bazar (salınmışdır).
Üçüncü—Şuşa qalasının sabiq divarı və indi qoşunun taxıl ambarı olan bina.

Mərhum Ibrahim xandan qalmış bina və imarətlər

Birinci—müsəlman tarixi ilə 1182(1768/69)-ci ildə tikilmiş böyük camaat məscididir. Bu məscid köhnəldikdən sonra onu möhtərəm qızı rəhmətlik Kövhər ağa tə'mir edib, əvvəlkindən daha gözəl (şəklə salmışdır).
Ikinci—Şuşa qalasının hasar divarıdır ki, müsəlman tarixi ilə 1198 (1783—84)-ci ildə binası qoyulmuş və üç il ərzində tikilib qurtarmışdır. Indi dövlət mə'murları divarları yenidən tikdirmişlər və xanın tikdirdiyindən yalnız bə'zi yerdə əsər görünür.
Üçüncü—Əskəranın hər iki qalasıdır ki, müsəlman tarixilə 1203 (1788—89) -cü ildə Şuşa qalasının üç ağaclığında Qarqarçayın keçdiyi iki dağın arasında tikilmişdir. Müharibə zamanı bu qalalarda azacıq piyada qoşun olsa düşmən oradan keçib Şuşa qalasına
gedə bilməz.
Dördüncü—Dağ-daş arasında olan Xəzinə dərəsinin imarət və otaqlarıdır ki, mağaranın
içərisində daş və əhənglə tikilmişdir. Oranın yalnız bircə yolu vardır.
Beşinci—(Şuşa) qalasının bir ağaclığında olan Xan bağının tikintiləri.
Altıncı—Ağdam bağının hasarı, mərhum Pənah xanla başqa övladlarının qəbirləri üstündə tikilmiş uca günbəzlər və o (yerin) arxları.

[1] Bu tarix ehtimala görə əsərin köçürülməsi tarixidir.

Fəsil

IBRAЬIM XANIN NIZAM-INTIZAMI VƏ ЬAKIMIYYƏTI ZAMANINDA OLAN QAYDALAR ЬAQQINDA

Qarabağın bütün elləri adları dəftər və siyahıda yazılmış atlı qoşundan ibarət idi. Zərurət zamanında mahalların və kəndlərin piyada tüfəngliləri mahal məlikləri ilə birlikdə
qoşun sıralarında hazır olurdular.

Qarabaq ellərindən tövcü pulu və məhsuldan malcahat alınmazdı. Lakin mahallardan və
kəndlərdən hər il malcahat və tövcü yığılırdı. hərdən bir Dağıstandan ləzgi qoşunu gətirildikdə ləzgi qoşununun məvacibini ödəmək və ləzginin itmiş və ya ölmüş atının əvəzini vermək üçün ellərdən də tövcü pulu, sürsat, taxıl, qoyun və mal alınardı. Adları nökər
və qoşun dəftərində qeyd olunmayan ailələrin nökər və qoşun əhlindən, habelə adları dəftərdə
qeyd olunmuş nökər və qoşun əhlindən heç bir şey alınmazdı. Onlar məaf[1] idilər. Onların
taxılı, atı və başqa ehtiyacı xanın öhdəsində idi. Qoşunun hər bir nökəri (nəfəri) bir evə
təhkim olunmuşdu. O ev həmin nökər və atlının ehtiyacını tə'min etməli idi.

Fəsil

Ьər il novruz bayramı günündə, mərhum xan, qoşunun butün adlı-sanlı sərgərdələrinə və
minbaşılarına xələt, ən'am və qılınc bağışlardı. Azərbaycan vilayətləri, mahallar, habelə
məliklər hər kəs öz rütbəsinə görə peşkəş gətirərdi.

Fəsil

Mərhum Ibrahim xan, səfərdə olduğu və ya bir yerdə ordu qurduğu zaman, xidmətində olan
minbaşıların, yüzbaşıların, Azərbaycan bəyləri, ağaları və xanlarının səhər, günorta, axşam xörəyi və atlarının arpası, habelə qoşun əhlinin, bir parasının, əmələnin, mirzələrin, eşik ağalarının, keşikçilərin və yasavulların bütün məxarici mərhum xanın
xəzinəsindən verilərdi. Bir çox gecələr, minbaşılara və başqalarına buraxılan diri qoyunlardan başqa, qırx puda yaxın düyü və otuz qoyun sərf olunardı. Bu hesabla sərf olunan
çörəyin, arpanın, yağın və şirniyyatın miqdarını təsəvvür etmək olar.

Fəsil

MƏRЬUM IBRAЬIM XANIN GƏLIRI

[Ibrahim xanın] gəliri mahalların və kəndlərin taxıl və ipəyindən alınan malcahatdan və
əkin yerlərində xana məxsus olan kotanlardan [istifadə edilməsi üçün alınan vergidən] ibarət
idi. hətta yadımdadır, bir dəfə mərhum Ibrahim xanın özünəməxsus olan cütləri və kotanları
hesab edirdilər. Mə'lum oldu ki, xanın cüt və kotanı bütün Qarabağ əhlinin cüt və kotanı
qədərdir; hətta onlardan iki cüt də artıqdır. Bütün bu qədər taxıl və mal-qara qoşuna, saraya,
hərəmxanaya, nökərlərə, əmələlərə və qonaqlara sərf olunardı. Bunlardan əlavə (xanın) icarə,
peşkəş, Qarabağ ixracatı və sikkəxanadan gəliri olurdu və (ona) Azərbaycan vilayətlərindən
cinslə, pulla çoxlu peşkəş göndərərdilər.

Fəsil

MƏRЬUM XANIN ƏXLAQI VƏ RƏFTARI

Mərhum Ibrahim xan qərib sevən, qonaqpərəst, yetimlərə baxan, rəiyyətpərvər, qeyrətli,
ürəkli, çörəkli, ehsan sahibi və ən'am paylayan bir adam idi. Böyük seyidlərə və fağırlara çoxlu
sədəqə və nəzir verərdi. Alimlərə, seyidlərə hörmət edərdi. Ətraf (mahalların), Azərbaycan,
Şirvan və başqa vilayətlərin xanları, bəyzadələri ona pənah gətirib, kömək istədikləri zaman
onlara hörmət edər və arzularına çatdırmaq uğrunda olduqca sə'y göstərər və onları arzularına
çatdırardı. Gözəl qadınların məclis və söhbətinə çox meyli var idi.

[1] M ə a f—vergidən azad deməkdir.

Fəsil

XANIN ILXISI

Xanın yaxşı atları, heyvanı və çoxlu ilxısı var idi. Xanın ilxısı Iran və Rum vilayətlərində belə böyük şöhrət tapmışdı. Mərhum xanın atlarının çoxu mərhum Nadir
şahın atları və ilxısının cinsindən idi. Xan onları Azərbaycan vilayətlərindən, Şahsevən,
Şətaqi və Xorasan xanlarından alıb gətirmişdi. Təqribən üç-dörd min və bəlkə daha çox
balalayan madyanı, xüsusi cins ayqırları var idi. Xüsusi qoyun sürüləri, malı, camışı o qədər
çox idi ki, saymaqla qurtarmazdı.

Fəsil

MƏRhUM IBRAhIM XANIN KARGÜZARLARI, QARDAŞLARI VƏ QARDAŞOĞLANLARI hAQQINDA

Xanın qardaşları, qardaşı uşaqları, öz övladı və əmisi uşaqları mə'ruf bəylər olub, mal, dövlət, nökər və cəlal sahibi idilər. Onların hər biri başqa vilayətlərin xanlarına bərabər idi. Əmisi oğlu Mirzə Əli bəy, bibisi oğlu .Lütfəli bəy, qardaşı uşaqları—Fəzi bəy,
Əbdüssəməd bəy, Kəlbəli bəy, hümmətəli bəy və öz oğlanları o bəylərin sırasında idilər.
Mehrəli bəy və Ibrahim xan, Pənah xanın uşaqlarıdırlar.
Cavanşir, Otuziki, Kəbirli, Dəmirçi-həsənli, Bərgüşat, Qaraçorlu, hacı Samlı, Kolanı və Qapan ellərinin bəyləri ilə Dizak, Vərəndə, Çiləbörd, Talış və Xaçın mahallarının mələkləri də bir para vilayət xanları kimi dövlət, əzəmət, cəlal və binövrə sahibi idilər. Özü
tərbiyə edib, rəşadət, çalışqanlıq və səmimiyyətlərinə görə dövlət və rəiyyət sahibi etdiyi
başqa bəylər də məşhurdurlar.

Fəsil

EVININ ƏMƏLƏ VƏ KARGÜZARLARI VƏ DÖVLƏT IŞILƏ MƏŞĞUL OLAN ŞƏXSLƏRI

Birincisi, Vaqif təxəllüslü mərhum Axund Molla Pənahdır ki, tədbirli və kamallı məşhur vəzir idi və Iranda, Rumda olduqca şöhrət tapmışdır. Onun türkcə yazdığı aşiqanə
şeirləri indi də dillərdə əzbərdir. hörmət sahibi olan başqa kargüzarları, eşik ağaları, nazirləri və əmələləri də bacarıqlı, ağıllı və şirin dilli adamlar idi. Ağa Məhəmməd şahın əhvalatından sonra, Qarabağda üz vermiş pərişanlıq və qarışıqlıq nəticəsində

mərhum xanın bunlar kimi bir çox adamları, əmələ və kargüzarları tamamilə vəfat etdilər.

Fəsil

XANIN ADLI-SANLI EVLADI

Ьələ mərhum Ibrahim xan sağ ikən. bir anadan doğulmuş böyük oğlanları Cavad ağa və
Məhəmmədhəsən ağa vəfat etdilər. Bunların anası Cəbrayıllı bəylərindən birinin qızı idi.

Mərhum xandan sonra, polkovnik Xanlar ağa və Iranda olan Əbülfət xan vəfat etdilər. Sonra,
polkovnik Məhəmmədqasım ağa, Fətəli ağa, Süleyman ağa, Ьüseynquluağa və Səfiqulu ağa öldülər.

Indi Qarabağda sağ qalanlar: həmail və cəvahir cıqqa sahibi general-mayor Mehdiqulu xan
və Əhməd xandır ki, xan qızlarından doğulmuşlar. Şeyx Əli ağa isə kənizdən doğulmuşdur.

Mərhum Ibrahim xanın sağ qalan qızlarından biri nəcib Gürcüstan _tavatının qızından
doğulmuş Gövhər ağadır, biri də Izzət bəyimdir ki, Gürcüstan valisinin vəziri Mirzə Rəbi'nin qızından olmuşdür.Gürcüstan valisi Irakli mərhum Ibrahim xanla daima dost və
müttəfiq olmaq istəyirdi. Lakin din ixtilafı imkan vermədiyindən öz vəzirinin üç qızını mərhum xana və iki oğlu—Əbülfət xana və Məhəmmədqasım ağaya vermişdi ki, bu nigah
vasitəsilə aralarında məhəbbət əlaqələri yaradılmış olsun.

Fəsil

MEЬDIQULU XANIN VARIS VƏ VƏLIƏЬD OLMASININ
SƏBƏBI

Mərhum Ibrahim xan birinci dəfə Kürəkçay qırağında sərdar Sisianovla görüşdüyü zaman
varislik və vəliəhdlik adı onun böyük oğlu mərhum Məhəmmədhəsən ağaya verilmişdi. O zaman
Məhəmmədhəsən ağanın ikinci oğlu girov adı ilə Sisianovun yanına göndərildi. General-
mayor Məhəmmədhəsən ağa mərhum Ibrahim xanın sağlığında öldüyündən, xanın yerdə qalan
oğlanları içərisində ən böyüyü general-mayor Mehdiqulu ağa idi. Buna görə mərhum Ibrahim
xanın öz sağlığında varislik və vəliəhdlik kağızı, xanın və Qarabağın başqa ə'yanının möhrü
ilə Mehdiqulu ağaya verildi. xan və varis adlandırıldı.

Bu səbəbə görə mayor Lisaneviç, mərhum Ibrahim xan öldükdən sonra, general Nesvetayevin
hüzuruna raport yazmış və ona əsasən 1807-ci ildə böyük imperator mərhum Aleksandr
Pavloviçin fərmanı üzrə Mehdiqulu xana Qarabağın xanı adı, hakimiyyət bayrağı və cavahirə
tutulmuş qılınc verildi.

Mərhum Mehdiqulu xanın hakimiyyəti dövründə baş vermiş hadisələr, böyük dövlətin

kargüzarları tərəfindən dəftərlərdə yazıldığından sizə mə'lumdur. Odur ki, mənim burada
yazmağıma ehtiyac qalmır.
Son.__